Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 85 (8108) ŞƏNBƏ, 20 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# 3 ayda 3 faiz artım

2016-cı ildən Azərbaycan iqtisadiyyatında başladılan yeni iqtisadi islahatların nəticəsi getdikcə daha dərindən hiss olunmaqdadır. Artıq ötən il ümumi daxili məhsulun 1,4, qeyri-neft sektorunun 1,8, sənaye istehsalının 1,5, kənd təsərrüfatının isə 4,6 faiz artması iqtisadiyyatın şaxələndirilməsi, istehsalın və ixracın stimullaşdırılması ilə bağlı Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamların uğurla icrasının nəticəsi idi.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi və təşəbbüsləri ilə iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətliliyin yüksəldilməsi, real sektora, sahibkarlığa dövlət dəstəyinin artırılması, biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatlar, təmin edilmiş siyasi və makroiqtisadi sabitlik ötən il Azərbaycan iqtisadiyyatının inkişafını, xarici təsirlərə və risklərə dayanıqlığını şərtləndirən başlıca amillər kimi yadda qaldı.

Ötənilki uğurlu makroiqtisadi göstəricilərin bu il də artan xətlə yüksələcəyi gözləniləndir. Çünki yeni islahatlar kursu məhdud dövrlə kifayətlənməyərək perspektivdə iqtisadiyyatın hər bir sahəsində davamlı artımı və inkişafı nəzərdə tutur. Artıq bu ilin ilk üç ayının göstəriciləri iqtisadi artımda kifayət qədər sanballı nəticələrin əldə edildiyini göstərir. Belə ki, 2019-cu ilin yanvar-mart aylarında ölkədə 18 milyard 111,7 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çox ümumi daxili məhsul istehsal edilib. ÜDM istehsalının 46 faizi sənayenin, 10,2 faizi ticarət, 6,6 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrinin, 5,5 faizi tikintinin, 2,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 16,4 faizi digər sahələrin payına düşüb. Əhalinin hər nəfərinə düşən ÜDM 1835,1 manata bərabər olub. Əhalinin gəlirlərinin artım tempi isə inflyasiyanı dəfələrlə üstələyib.

Təbii ki, iqtisadiyyatda həyata keçirilən yeni islahatlar əsasən qeyri-neft sektorunun inkişafına təkan verib. Çünki islahatlar zamanı qarşıya qoyulan əsas vəzifələr qeyri-neft sektoru üzrə ixracyönümlü məhsul istehsalının artırılması, ixracın təşviqi, xarici bazarların tapılması idi. Təbii ki, bu sırada sənaye istehsalının artımı xüsusilə diqqət mərkəzində saxlanıldı. Təqdirəlayiq haldır ki, 2019-cu ilin yanvar-mart ayları bu sahədə istehsalın daha da artımı ilə əlamətdardır. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2019-cu ilin yanvar-mart aylarında 11,5 milyard manatlıq və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı isə 15,6 faiz artıb. Sənaye məhsulunun 71,7 faizi mədənçıxarma sektorunda, 22,9 faizi emal sektorunda, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Xatırladaq ki, dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, sənaye parklarının və məhəllələrinin yaradılması, sənaye zonalarına yeni rezidentlərin cəlb edilməsi istiqamətində tədbirlər davam etdirilir. Buna görə yaxın gələcəkdə qeyri-neft sənayesində dinamik artımın baş verəcəyi şübhəsizdir.

Aprelin 5-də Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün salınan yeni yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində Prezident İlham Əliyev builki iqtisadi artımın kifayət qədər yüksək olduğunu bildirib: *"2015-2016-cı illərdə dünyada baş vermiş iqtisadi böhran bütün ölkələrə təsir etmişdir, o cümlədən bizə. Təsəvvür edin, bizim gəlirlərimiz 3-4 dəfə azaldı. Yəni faizlərlə ölçülmürdü, dəfələrlə ölçülürdü. Bu, hər bir ölkə üçün böyük imtahandır, böyük sınaqdır. Əlbəttə ki, görülən operativ tədbirlər nəticəsində biz o böhranın fəsadlarını minimum səviyyəyə endirə bildik və ondan sonra ciddi addımlar ataraq iqtisadi sabitliyi qoruya bildik, inkişaf templərinə qədəm qoyduq. Keçən il artıq iqtisadi inkişaf başlamışdır, bu ilin iki ayının yekunları var. Bu yekunlar çox müsbətdir, iqtisadi artım kifayət qədər yüksəkdir".*

2019-cu ilin ötən dövrü Azərbaycanın xarici ticarətinin artması baxımından da əlamətdardır. Bu dövrdə respublikamızın hüquqi və fiziki şəxsləri dünyanın 144 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 86 ölkəyə məhsul ixrac edilib, 138 ölkədən isə idxal olunub. Qeyd edildiyi kimi, qeyri-neft sektorunun inkişafı istiqamətində diqqəti cəlb edən məsələlərdən biri Azərbaycan məhsullarının ixracının ildən-ilə artmasıdır. Bu sahədə dövlət istehsal sahələrinə və iş adamlarına böyük dəstək verir. Artıq bununla bağlı kifayət qədər sanballı nəticələr var və "Made in Azerbaijan" brendi altında ölkəmizin qeyri-neft məhsulları dünya bazarlarında özünə layiqli yer tapır. Statistikaya əsasən, Azərbaycanın qeyri-neft məhsullarının xaricə daha böyük həcmdə ixracı ölkəmizdə qeyri-neft sektoru istehsalının artdığını təsdiq edir. Belə ki, bu ilin ilk iki ayının nəticələrinə əsasən, qeyri-neft sektoru üzrə ixrac 282 milyon ABŞ dolları olub. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-fevral ayları ərzində qeyri-neft sektoru üzrə ixrac 40 milyon ABŞ dolları və ya 16,5 faiz artıb.

Bütün bu iqtisadi nailiyyətlər bir daha təsdiq edir ki, iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı, eləcə də mövcud çağırışların tələblərinə uyğun çevik iqtisadi islahat tədbirləri sayəsində Azərbaycan iqtisadiyyatı öz dayanıqlığını möhkəmləndirir. Xüsusən qeyri-neft sektorunun inkişafında başlayan yeni mərhələ mühüm iqtisadi uğurların əldə edilməsi ilə müşahidə olunur. Ən əsası, əgər gələcəkdə də neftin qiymətlərində kəskin azalmalar baş versə, bu, Azərbaycan iqtisadiyyatına mənfi təsir edə bilməz. Çünki bu gün ölkəmizdə iqtisadi inkişaf əsasən neftdən asılı olmayan istiqamətlərin üzərində köklənib.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 1,9 milyon (bir milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2019-cu il*

## Prezident İlham Əliyev Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib

### "Bir kəmər, bir yol" layihəsi də mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsinə töhfə verəcək

Prezident İlham Əliyevin Çinin "Sinxua" agentliyinə verdiyi müsahibə həcmcə yığcam və lakonik olduğu qədər məzmunca müdrik və praqmatikdir. Çinli müxbir elə ilk sualında iki dövlətin arasında diplomatik münasibətlərin qurulmasının ötən il 26-cı ildönümünün qeyd edilməsini yada salaraq Azərbaycan-Çin münasibətlərinin hazırkı vəziyyəti, Azərbaycanın xarici siyasətində Çinə nə dərəcədə önəm verilməsi ilə maraqlanıb.

Prezident İlham Əliyev bu münasibətlərin təməlinin ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu xatırladıb, ikitərəfli əlaqələrin uğurlu dinamik inkişafını qeyd edib: "Azərbaycan və Çin dost ölkələrdir. Mənim Çinə 2005-ci ildəki rəsmi və 2015-ci ildəki dövlət səfərlərim ikitərəfli münasibətlərimizi inkişaf etdirmək və dərinləşdirməklə yanaşı, birgə iradəmizi bir daha təsdiq etdi".

Dövlət başçısı müsahibəsində həmçinin fəal siyasi təmasların mövcudluğunu, iqtisadi əməkdaşlığın getdikcə dərinləşdiyini bildirib. Azərbaycanın Çinin təşəbbüsünə qoşularaq Asiya İnfrastruktur İnvestisiya Bankının həmtəsisçisi olduğunu deyən İlham Əliyev bir sıra Çin şirkətlərinin ölkəmizdə uğurla fəaliyyət göstərdiyini, bununla belə, onları ölkəmizdə investor, ticarətçi və podratçı qismində daha fəal görmək istədiyini bildirib. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan sənaye istehsalı, informasiya texnologiyaları, kənd təsərrüfatı və bir sıra digər sahələrdə daha çox Çin şirkətlərini görmək marağındadır.

"Bizim ticarət dövriyyəmiz 1,3 milyard dollar təşkil edir. Çindən idxal 40 faiz artıb. Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılmışdır. Azərbaycan Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər. Çinin İKT şirkətləri də ölkəmizdə uğurla fəaliyyət göstərirlər" deyən Prezident İlham Əliyev müsahibədə humanitar sahədə də əməkdaşlığımızın yaxşılaşdırılmasının perspektivlərinə toxunub.

Azərbaycanda turizm sənayesinin inkişafına böyük diqqət ayrılır. Sadələşdirilmiş viza proseduru ölkəmizə gələn xarici turistlərin vizanı Azərbaycanın beynəlxalq hava limanlarında əldə etməyinə imkan yaradır. Elə çinli turistlərinin sayında 53 faiz artımın olması da bunun nəticəsidir.

Azərbaycan Prezidentinin 2015-ci ildə Çinə səfəri zamanı iki ölkə arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanmış, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü tam dəstəklənmişdir. Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu Çindən Avropaya və geriyə yükdaşımalar üçün ən qısa nəqliyyat marşrutuna çevrilmişdir.

Bunun davamı olaraq Prezident İlham Əliyev müsahibəsində ortaya yeni münasibətlər sistemi qoymuş və qlobal sülhə dəstək vermək gücünə qadir olan Yeni İqtisadi Modelin mahiyyətini açıqlamışdır: "...Coğrafi yerləşməmizdən istifadə edərək biz ölkəmizin infrastruktur və nəqliyyat sektoruna sərmayə yatırdıq və bununla da Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirdik. Bizim ölkə tarixi İpək yolu üzərində yerləşir. Müasir infrastrukturun yaradılması bizim əsas hədəflərimizdəndir. Biz əsas sərmayəni yolların, avtomagistralların və hava limanlarının inşasına yönəldirik. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Azərbaycan hər iki layihədə fəal iştirak edir və bu istiqamətdə bir sıra təşəbbüs irəli sürüb".

Bu ay Pekində keçiriləcək "Bir kəmər, bir yol" üzrə 2-ci Beynəlxalq Əməkdaşlıq Forumunu nəzərə alsaq, Azərbaycan Prezidentinin təklif etdiyi iqtisadi model nəinki Qafqazda, hətta bütün dünyada belə bəşəriyyət üçün gələcəyin birgə qurulması baxımından nəhəng konsepsiyadır.

*Ardı 5-ci səh.*

## İstehsal da artır, ixracın çeşidi də

Prezident İlham Əliyevin Füzuli rayonunun sosial-iqtisadi inkişafına göstərdiyi qayğı və diqqət sakinlərdə yüksək əhvali-ruhiyyə yaratmış və onlar qarşıya qoyulan vəzifələri uğurla icra edirlər.

Ölkə rəhbəri rayondakı dinamik inkişafdan, tərəqqi və yüksəlişdən məmnun qalaraq demişdir: "Biz burada düşmənlə üzüzə Horadizdə bir gülüstan, bir abad şəhər görürük. Bu gün Horadiz abadlığına görə onların paytaxtı olan qədim Azərbaycan şəhəri İrəvandan bir neçə dəfə üstündür. Bu, reallıqdır. Bunu hər kəs görür və görməlidir".

Dövlətin maddi dəstəyi sayəsində rayonun işğaldan azad olunmuş yaşayış məntəqələrində geniş bərpa-tikinti və abadlıq-quruculuq işləri aparılmış, respublikanın müxtəlif şəhər və rayonlarında məskunlaşan füzulili məcburi köçkünlərin doğma yurda qayıdışını təmin etmək üçün 17 yeni qəsəbə salınmış, təhsil, səhiyyə, idman, mədəniyyət və digər sosialyönümlü obyektlər tikilmiş, yollar, qaz, elektrik, içməli su xətləri çəkilmiş, digər mühüm infrastruktur layihələri həyata keçirilmişdir.

*Ardı 5-ci səh.*



Son illərdə yeni və müasir avadanlıqlarla təchizat, son texnologiyaların tətbiqi sənayedə maşınqayırma müəssisələrinin həm istehsal gücünü, həm də yeni çeşiddə məhsullar istehsal etmək imkanını artırıb. Hazırda maşınqayırma sənayesində rəqabətqabiliyyətli məhsullar istehsal edilir. Əsasən də avtomobillərin istehsalı xüsusi əhəmiyyət daşıyır. Artıq Azərbaycanda müxtəlif növ avtomobillər istehsal edilir.



## Azərbaycan avtobus da istehsal edəcək

### Hacıqabul Sənaye Məhəlləsində ikinci avtomobil zavodunun təməli qoyulub

Dünən isə bu istiqamətdə daha bir uğurlu layihəyə start verilib. Sahəsinə və investisiya dəyərinə (61,3 milyon manat) görə Azərbaycanın ən böyük sənaye kompleksi olan Hacıqabul Sənaye Məhəlləsində "Azərmaş" ASC-nin "Qartal" şirkəti ilə birgə həyata keçirdiyi layihə üzrə avtobus və yük avtomobilləri istehsalı zavodunun təməli qoyulub. Mərasimdə iqtisadiyyat naziri Şahin Mustafayev, İranın sənaye, mədən və ticarət naziri Reza Rəhmaninin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak ediblər.

Məlumat verilib ki, zavodda birinci mərhələdə 500 ədəd müxtəlif tutumlu avtobus, ikinci mərhələdə 1000 ədəd avtobus və yük avtomobili istehsal ediləcək. Birinci mərhələdə 100, ikinci mərhələdə isə 200 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Layihənin ümumi dəyəri 10 milyon avrodur. Birinci mərhələdə 6 milyon avro, ikinci mərhələdə isə 4 milyon avro yatırılması planlaşdırılır. Zavodun tikintisi Hacıqabul Sənaye Məhəlləsində 5 ha ərazidə həyata keçiriləcək. Müəssisədə Avropa İttifaqı ölkələrinin istehsalı olan avadanlıqlar quraşdırılacaq.

Sənaye məhəlləsində avtobus və yük avtomobilləri istehsalı zavodunun yaradılması köməkçi sənaye istehsalı və xidmət sahələrinin inkişafı üçün də əlverişli imkan yaradacaq.

*Ardı 5-ci səh.*

## Ermənistanda kütləvi ixtisarlar: 5 nazirlik ləğv olundu, 400-ə yaxın məmur işdən qovulur

### İşğalçı ölkədə ictimai-siyasi vəziyyət gərgin olaraq qalır

Bu gün müasir Ermənistanı xarakterizə edən əsas xüsusiyyətlərdən biri demokratiyanın boğulması, hakimiyyətin iradəsinə qarşı çıxanların inzibati metodlarla zərərsizləşdirilməsidir.

Əslində, ötən əsrin son onilliyində formal müstəqilliyini əldə etdikdən sonra bu ölkədə məhz belə bir şəraitin hökm sürməsi özünü qabarıq surətdə büruzə verir. Elə bu fonda işğalçı ölkədə insan hüquqlarının kobud şəkildə pozulması, media azadlığının boğulması illər boyu adi hal alıb.

İndinin özündə də dərin iqtisadi və siyasi böhran içərisində boğulan Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır, siyasi baxışlarına, müxalifətdə olmalarına görə həbsə atılanların sayı artır.

*Ardı 5-ci səh.*



## "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası 2018-ci il 13 fevral tarixli 986-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Pasportlar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 243; 1995, № 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 385, № 6, maddə 493; 1998, № 2, maddə 70; 2000, № 12, maddə 835; 2001, № 3, maddə 143, № 6, maddə 378, № 11, maddə 674; 2002, № 1, maddə 4, № 8, maddə 463; 2004, № 7, maddə 505; 2005, № 3, maddə 152, № 10, maddə 874; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 3, maddə 219, № 4, maddə 319, № 11, maddə 933, № 12, maddələr 1006, 1017, 1029; 2007, № 7, maddə 712, № 8, maddə 753, № 11, maddə 1053; 2008, № 3, maddə 158, № 8, maddələr 699, 701, № 10, maddə 886; 2009, № 7, maddə 519; 2010, № 3, maddə 166, № 4, maddə 276, № 11, maddə 935; 2011, № 4, maddə 270, № 6, maddə 474, № 7, maddə 580; 2012, № 7, maddə 647; 2013, № 5, maddə 465, № 6, maddə 619, № 7, maddə 793; 2014, № 4, maddə 323, № 11, maddə 1335; 2015, № 6, maddə 688; 2017, № 6, maddələr 1042, 1045, № 12 (I kitab), maddə 2263; 2018, № 11, maddə 2216; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1444-VQD nömrəli Qanunu) 6-cı maddəsinin birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci bəndə "hakimlərinə," sözündən sonra "İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından seçilmiş hakimə," sözləri əlavə edilsin.

2. 3-cü bəndə "Konstitusiya Məhkəməsi sədrinin," sözlərindən sonra "İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından seçilmiş hakimin," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2019-cu il*

## "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1529-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1529-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*

## "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553) 4-cü hissəsində "715" rəqəmləri "895" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD, 1384-VQD nömrəli, 18 dekabr tarixli 1395-VQD, 1398-VQD nömrəli, 28 dekabr tarixli 1406-VQD, 1427-VQD, 1432-VQD nömrəli, 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli, 19 fevral tarixli 1516-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddəyə "363," rəqəmlərindən sonra "363-1, 363-2," rəqəmləri əlavə edilsin.

2. 360-cı maddənin dispozisiyasında "Abonentə" sözü "Abunəçiyə" sözü ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 363-1-ci və 363-2-ci maddələr əlavə edilsin:

**"Maddə 363-1. Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili**

363-1.1. Telekommunikasiya operatorunun və ya provayderinin telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkil edilməsinə görə -

inzibati xətanın törədilməsində istifadə olunan avadanlıqlar və vasitələr müsadirə edilməklə fiziki şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə, vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

363-1.2. Bu Məcəllənin 363-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

inzibati xətanın törədilməsində istifadə olunan avadanlıqlar və vasitələr müsadirə edilməklə fiziki şəxslər üç min beş yüz manatdan dörd min manatadək məbləğdə, vəzifəli şəxslər altı min manatdan yeddi min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:**

1. Bu Məcəllənin 363-1-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

2. Bu Məcəllənin 363-1 və 363-2-ci maddələrində "müvafiq qurğu" dedikdə, mobil nömrə sim-kartları quraşdırılan və internet vasitəsilə qəbul edilən beynəlxalq telefon trafikinin ümumistifadəli telekommunikasiya şəbəkəsinə dolayı yolla istiqamətləndirilməsini təmin edən qurğu başa düşülür.

**Maddə 363-2. Qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin qarşısının alınması üçün tədbirlərin görülməməsi**

Telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla təşkil edilən qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin texniki vasitələrdən, avadanlıqlardan və ya proqram təminatından istifadə etməklə qarşısının alınması üçün telekommunikasiya operatoru və ya provayderi tərəfindən tədbirlərin görülməməsinə görə -

vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on min manatadək məbləğdə cərimə edilir.".

4. 368-ci maddə üzrə:

4.1. adında "Abonentin" sözü "Abunəçinin" sözü ilə əvəz edilsin;

4.2. dispozisiyasında "abonentin" sözü "abunəçinin" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1538-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1538-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 363-1-ci və 363-2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12, (I kitab), maddə 2472) aşağıdakı məzmunda 233-4-cü maddə əlavə edilsin:

**"Maddə 233-4. Telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili**

233-4.1. Telekommunikasiya operatorunun və ya provayderinin telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkil edilməsi əhəmiyyətli zərər vurulmasına səbəb olduqda -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

233-4.2. Eyni əməllər:

233-4.2.1. təkrar törədildikdə;

233-4.2.2. xeyli miqdarda ziyan vurmaqla törədildikdə;

233-4.2.3. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə və ya iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

233-4.3. Bu Məcəllənin 233-4.1-ci və 233-4.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

233-4.3.1. külli miqdarda ziyan vurmaqla törədildikdə;

233-4.3.2. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə -

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən dörd mislinədək miqdarda cərimə və ya üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya dörd ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Qeyd:**

1. Bu Məcəllənin 233-4.1-ci maddəsində "müvafiq qurğu" dedikdə, mobil nömrə sim-kartları quraşdırılan və internet vasitəsilə qəbul edilən beynəlxalq telefon trafikinin ümumistifadəli telekommunikasiya şəbəkəsinə dolayı yolla istiqamətləndirilməsini təmin edən qurğu başa düşülür.

2. Bu Məcəllənin 233-4.1-ci maddəsində "əhəmiyyətli zərər" dedikdə, dövlət təhlükəsizliyinə təhdid yaradan zərərin vurulması, yaxud fiziki və ya hüquqi şəxslərə on min manatdan yuxarı, lakin əlli min manatdan artıq olmayan məbləğdə ziyan vurulması başa düşülür.

3. Bu Məcəllənin 233-4.2.2-ci maddəsində "xeyli miqdar" dedikdə, əlli min manatdan yuxarı, lakin yüz min manatdan artıq olmayan məbləğ, 233-4.3.1-ci maddəsində "külli miqdar" dedikdə yüz min manatdan yuxarı olan məbləğ başa düşülür.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1537-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1537-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832; № 10, maddə 2004, № 11, maddə 2271) 3-cü hissəsinin üçüncü abzasına "233-3," rəqəmlərindən sonra "233-4," rəqəmləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2019-cu il*

## "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 9, № 8, maddə 598, № 9, maddə 668; 2007, № 4, maddə 320, № 5, maddə 446, № 7, maddə 712, № 11, maddə 1078; 2008, № 6, maddə 470, № 7, maddə 608; 2010, № 7, maddə 590; 2011, № 4, maddə 266, № 11, maddə 982; 2012, № 6, maddə 521; 2014, № 2, maddə 84; 2015, № 5, maddə 491; 2018, № 3, maddələr 375, 394, № 5, maddə 887) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 71.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"71.2. Konstitusiya Məhkəməsi sədrinin aylıq vəzifə maaşı Azərbaycan Respublikası Milli Məclisi Sədrinin aylıq vəzifə maaşına bərabərdir.";

1.2. aşağıdakı məzmunda 73.10-cu maddə əlavə edilsin:

"73.10. Konstitusiya Məhkəməsinin hakiminə bir aylıq vəzifə maaşı həcmində vəzifə maaşına əlavə ödənilir.".

**Maddə 2.** Bu Qanun 2019-cu il aprelin 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1544-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1544-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2019-cu il*

## "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1425-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 22.12-ci maddədə "20" rəqəmləri "10" rəqəmləri ilə əvəz edilsin;

1.2. 22.16-cı maddənin ikinci cümləsindən ", habelə onun yaratdığı dövlət orqanlarında (qurumlarında)" sözləri çıxarılsın və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlarda (qurumlarda) həyata keçirilən auditin nəticəsi barədə Hesablama Palatası tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) illik məlumat təqdim olunur.";

1.3. 28.6-cı maddənin dördüncü cümləsindən "və" sözü çıxarılsın;

1.4. aşağıdakı məzmunda 34.4-cü maddə əlavə edilsin:

"34.4. Hesablama Palatasının üzvlərinə bir aylıq vəzifə maaşı həcmində vəzifə maaşına əlavə ödənilir.".

**Maddə 2.** Bu Qanunun 1.4-cü maddəsi 2019-cu il aprelin 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1543-VQD nömrəli Qanununun tətbiqi və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 259 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1543-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 259 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1822) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "ikinci cümləsində (hər iki halda)" sözləri "ikinci (hər iki halda) və üçüncü (hər iki halda) cümlələrində" sözləri ilə əvəz edilsin;

3.2. 2.2-ci bənddə "ikinci cümləsində (hər iki halda)" sözləri "ikinci (hər iki halda) və üçüncü (ikinci halda) cümlələrində" sözləri ilə əvəz edilsin;

3.3. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. həmin Qanunun 22.16-cı maddəsinin üçüncü cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin yaratdığı dövlət orqanları və qurumları nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də və 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 118; 2016, № 5, maddə 862, № 8, maddələr 1373, 1384; 2017, № 1, maddə 46, № 7, maddə 1345, № 12 (I kitab), maddə 2340; 2018, № 10, maddə 2010, № 11, maddə 2287, № 12 (I kitab), maddə 2603) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.29-cu yarımbəndində "investisiya qoyuluşu sahəsində dövlət zəmanəti ilə alınan kreditlərin layihələri üzrə müqavilələrin (sazişlərin, kontraktların) və ya təkliflərin iqtisadi ekspertizasını aparmaq, belə kreditlərə dair xarici investorlarla danışıqlarda iştirak etmək," sözləri "Azərbaycan Respublikası adından alınan borc hesabına maliyyələşdirilməsi təklif edilən layihələrin (o cümlədən icrada olan layihə üçün əlavə maliyyələşdirmənin) və kreditlərin zəmanətlə alınması barədə müraciətlərin zəruriliyini, prioritetliyini, maliyyə dayanıqlığını, ölkənin sosial-iqtisadi inkişafına təsirini qiymətləndirmək," sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2100; 2018, № 10, maddə 1991) ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"nın 1.3-cü bəndində "Dövlət zəmanəti ilə alınan kreditlərə dair sazişlərin bağlanması qaydaları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 368 nömrəli Fərmanına" sözləri "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanına" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 aprel 2019-cu il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2, I kitab, maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12, I kitab, maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7, I kitab, maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12, I kitab, maddələr 2498, 2509; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1413-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 164.1.27-ci maddədə "3" rəqəmi "4" rəqəmi ilə əvəz edilsin;

2. 164.1.42-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 164.1.43-cü maddə əlavə edilsin:

"164.1.43. kəpəyin istehsalı və satışı - 2019-cu il martın 1-dən 2 il müddətinə.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 mart 2019-cu il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1542-VQD nömrəli Qanununun tətbiqi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1542-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2019-cu il*

## Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində (bundan sonra - Mərkəz) təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Mərkəzin nizamnaməsinin təsdiqi;

2.1.2. nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

2.1.3. icra orqanlarının yaradılması, onların səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.1.4. Mərkəzin yenidən təşkili və ləğvi;

2.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.2.1. Mərkəzin illik maliyyə hesabatlarının təsdiq edilməsi;

2.2.2. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

2.2.3. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

2.3. Mərkəzə:

2.3.1. inkişaf istiqamətlərinin, strateji məqsədlərinin və fəaliyyət planlarının Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirilməsi;

2.3.2. strukturunun Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməsi.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Mərkəzin işçilərinin say həddini və əməkhaqqı fondunu Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Mərkəzin inzibati bina ilə təmin olunması və maddi texniki bazasının möhkəmləndirilməsi üçün müvafiq tədbirlər görsün;

3.5. bu Fərmanın 3.4-cü bəndinə uyğun olaraq Mərkəzin balansına verilən dövlət əmlakının qiymətləndirilərək onun nizamnamə fondunda nəzərə alınması üçün müvafiq təkliflərini Mərkəz dövlət qeydiyyatına alındığı gündən iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Mərkəz:

4.1. dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanla təsdiq edilmiş Nizamnamənin 5.1-ci bəndində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 360 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, № 12 (I kitab), maddə 2566; 2019, № 1, maddə 82; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 4 fevral tarixli 514 nömrəli və 12 mart tarixli 586 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissə üzrə:

1.1. 3.1-ci bənddə "Qeydiyyat və notariat şöbəsinin rəisi" sözləri "qeydiyyat və notariat üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri" sözləri ilə əvəz edilsin;

1.2. 3.2-ci bənddə "Qeydiyyat və notariat şöbəsinin rəisi, rayon (şəhər) qeydiyyat şöbələrinin rəisləri" sözləri "qeydiyyat və notariat üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri, rayon (şəhər) üzrə qeydiyyat məsələləri ilə bağlı yerli qurumlarının rəhbərləri" sözləri ilə əvəz edilsin;

1.3. 3.2-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.3-cü bənd əlavə edilsin:

"3.3. Məcəllənin 598-ci maddəsində (notariuslara münasibətdə) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə - ədliyyə naziri, onun müavinləri, nazirliyin Aparatının Qeydiyyat və notariat baş idarəsinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının qeydiyyat və notariat üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri.".

2. 6.0-cı bənddə "və 545-ci" sözləri ", 545 və 598-ci (hüquq xidmətləri, mühasibat və vergi məsləhəti xidmətləri göstərən digər şəxslərə münasibətdə)" sözləri ilə əvəz edilsin.

3. 14.1-ci bəndə "müəssisələrə" sözündən sonra ", lotereya və idman mərc oyunları təşkilatçılarına" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 aprel 2019-cu il*

# Sankt-Peterburqda MDB Parlament Assambleyasının 49-cu plenar iclası keçirilib





Aprelin 19-da Sankt-Peterburqda MDB Parlament Assambleyasının 49-cu plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanı tədbirdə Milli Məclisin Sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti təmsil edib. İclasda MDB PA-nın parlament nümayəndə heyətləri, daimi komissiyalarının üzvləri, alimlər, ekspertlər iştirak ediblər.

İclası açan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko tədbirdə MDB PA-nın hüquq məsələləri, iqtisadi və maliyyə məsələləri, elm və təhsil məsələləri üzrə daimi komissiyalarının hazırladıqları 11 model qanunvericilik aktı və tövsiyələrinin nəzərdən keçiriləcəyini bildirib. Təsdiq edilmiş sənədlər MDB ölkələri milli qanunvericiliklərində istifadə olunması üçün Birlik dövlətlərinin qanunvericilik orqanlarına təqdim edilib. Toplantı çərçivəsində təhlükəsizlik və yeni çağırışlar və təhdidlərə qarşı mübarizə birləşmiş komissiyasının, siyasi məsələlər və beynəlxalq əməkdaşlıq daimi komissiyasının, müdafiə və təhlükəsizlik daimi komissiyasının iclasları olub.

Tədbirin sonunda KİV nümayəndələri üçün mətbuat konfransı keçirilib.

# Daxili işlər naziri polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib



Aprelin 19-da Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov Əlahiddə Çevik Polis Alayında Bakı Şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında və Sumqayıt Şəhər və Abşeron Rayon Polis idarələrində vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aidiyyəti baş idarə, idarə və xidmət rəislərinin də iştirak etdikləri tədbirdə nazir hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə ayrı-ayrılıqda maraqlanıb. Ümumilikdə 433 iddiaçının arasından daha hazırlıqlı olan 372 nəfər seçilib. Onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Tədbirdə çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb. Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının vətəndaşların intellektual səviyyəsindən, xüsusən yüksək texnologiyalara, innovasiyalara yiyələnmiş, mükəmməl təhsil almış savadlı, milli-mənəvi dəyərlərin daşıyıcısı olan vətənpərvər, dövlətçiliyə sadiq, müstəqilliyimizi, milli maraqlarımızı hər şeydən uca tutan gənclərdən asılı olduğunu dəfələrlə vurğuladıqlarını məmnunluqla xatırladan nazir R.Usubov belə yüksək mənəvi, işgüzar keyfiyyətlərə malik kadrların dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün daim mühüm addımların atıldığını diqqətə çatdırıb. O, hazırkı seçimlərin də bu sahədə uzun müddət həyata keçirilən məqsədyönlü dövlət siyasətinin növbəti bariz nümunəsi olduğunu bildirib.

General-polkovnik Ramil Usubov bu gün ölkəmizdə cinayətkarlığa qarşı uğurla davam etdirilən qətiyyətli mübarizə, sabitliyin, əmin-amanlığın təmini, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunması siyasətinin hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının da üzərinə böyük məsuliyyət qoyduğunu, hər bir əməkdaşın öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməsinin əhəmiyyətini qeyd edib.

Daxili işlər naziri vətəndaşlara xidmətin şərəfli vəzifə olduğunu, son illər ölkədə müşahidə edilən dinamik inkişafın təməlində xalq-iqtidar birliyinin, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən hüquq mühafizə siyasətinin, ictimai-siyasi sabitliyin dayandığını, bu istiqamətdə qazanılmış müsbət nəticələrin xalqımız tərəfindən hər zaman yüksək qiymətləndirildiyini xatırladıb.

Nazir xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək şərəfli polis adını uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərlərində səylə çalışmalarını, idmanla sıx məşğul olmalarını, müasir dövrün tələblərinə və çağırışlarına cavab vermələrini, informasiya texnologiyalarının ən son nailiyyətlərini praktikada fəal şəkildə tətbiq etmələrini, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını tövsiyə edib, gələcək xidməti fəaliyyətlərində onlara uğurlar arzulayıb.

# Müdafiə naziri Hərbi Hava Qüvvələrinin təlim-məşq mərkəzinin açılışında iştirak edib

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin modernləşdirilməsi çərçivəsində həyata keçirilən idarəetmə sisteminin təkmilləşdirilməsi və yüksək texniki standartlar səviyyəsinə çatdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aprelin 18-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti aviasiya təmiri zavodunda olub. Müdafiə nazirinə təyyarə və helikopter aqreqatlarının, mühərrik və reduktorlarının, aviasiya texnika və avadanlığının, eləcə də radioelektron avadanlıq və aviasiya silahlarının təmiri sexlərində həyata keçirilən cari fəaliyyətlər barədə məruzə olunub. Nazir aviasiya vasitələrinin hazırlığı, aqreqatların cari təmiri və reqlament işlərinin gedişi ilə maraqlanıb.

Sonra müdafiə naziri Hərbi Hava Qüvvələrinin MiQ-29 qırıcı təyyarələrinin təlim-məşq mərkəzinin açılışında iştirak edib.

General-polkovnik Z.Həsənov mərkəzin aviasiya mühəndisləri, aviasiya silahları, uçuşların idarəolunması və təhlili siniflərində olub, hərbi pilotların hazırlıq məşqlərini izləyib və müvafiq tapşırıqlar verib. Müdafiə nazirinə məruzə olunub ki, burada quraşdırılmış simulyasiya qurğuları eyni vaxtda iki və ya dörd təyyarənin uçuşunu təmin etməyə imkan verir.

Müdafiə nazirinə uçuş heyəti üçün nəzərdə tutulan yüksəklik ləvazimatları və avadanlıqları nümayiş etdirilib.

Mərkəzdə yaradılan şəraitlə tanış olduqdan sonra nazir hərbi pilotlarla müşavirə keçirib və onların qarşısında konkret tapşırıqlar qoyub.

Sonda müdafiə nazirliyinin rəhbərliyi uçuş heyəti ilə birlikdə nahar edib.

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası olub

Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun xüsusi konstitusiya icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair Bakı Apelyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, mülki məhkəmə icraatında Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin "Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir" müddəası Konstitusiyanın 127-ci maddəsinin II, IV və VII hissələrində, 129-cu maddəsinin III hissəsində təsbit olunmuş ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi, faktlar əsasında və qanuna müvafiq keçirilməsi, məhkəmə qərarının qanuna və sübutlara əsaslanmasına dair ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ilə əlaqəli şəkildə tətbiq olunmalıdır.

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı zamanı məhkəmələr ədalət mühakiməsini çəkişmə və tərəflərin bərabərliyi prinsipinə riayət etməklə, tərəflərin təqdim etdiyi sübutlar və faktlar əsasında həyata keçirməli, öz qərarlarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, təqdim etdikləri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin tələblərinə müvafiq olaraq əldə edilmiş sübutlarla əsaslandırmalı, həmin sübutların araşdırılmasından irəli gələn həqiqəti müəyyən etməlidir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən aprelin 19-da ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Ağcabədi şəhərində yerləşən Yeni Azərbaycan Partiyasının inzibati binasında Ağcabədi, Bərdə, Ağdam və Tərtər rayonlarının sakinlərini qəbul edib.

Qəbul zamanı meşələrin qorunması, biomüxtəliflik, ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, ətraf mühitin monitorinqi və s. məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Aprelin 19-da baş prokuror Zakir Qaralov Ucar Rayon Prokurorluğunun inzibati binasında Ucar, Ağdaş və Zərdab rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda baş prokuror Zakir Qaralov bölgədə yaşayan 25 vətəndaşın müraciətini dinləyərək qaldırılan məsələlər üzrə onların qanuna uyğun və operativ şəkildə həll olunması üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

* * *

Aprelin 19-da Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Qəbələdə vətəndaşları qəbul edib.

DİM-dən bildirilib ki, qəbulda Qəbələ rayonunun sakinləri ilə yanaşı, İsmayıllı, Şamaxı və Qobustan rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər.

Görüşdə əsasən ümumi və tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, rezidenturaya qəbul, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının yeni qaydaları, əvvəlki illərin məzunlarının qəbulu və digər məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

Qeydiyyatdan keçənlərlə yanaşı, görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da M.Abbaszadə tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

**AZƏRTAC**

# Azərbaycan Ordusunun nümayəndələri NATO-nun çoxmillətli tibb təlimində iştirak edib





Azərbaycan Ordusunun nümayəndələri NATO-nun Hərbi Tibb Mükəmməllik Mərkəzi və Rumıniya Milli Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Vigorous Warrior - 2019" çoxmillətli tibb təlimində iştirak ediblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Rumıniyanın Çinku təlim mərkəzində 39 ölkədən 2500 nəfərdən artıq nümayəndənin iştirakı ilə keçirilən təlimin əsas məqsədi tibbi təminat sisteminin təkmilləşdirilməsi, idarəetmənin qiymətləndirilməsi, hərbi, mülki, beynəlxalq və qeyri-hökumət təşkilatları arasında qarşılıqlı əlaqənin qurulması qaydalarının məşq etdirilməsi olub. Təlim zamanı tibbi təminat, kimyəvi, bioloji, radioloji, nüvə (KBRN) və partlayıcı qurğuların tətbiqinə qarşı hazırlıq, axtarış-xilasetmə əməliyyatlarının təkmilləşdirilməsi, müasir texnoloji dəstək vasitələrinin tətbiqi və digər məsələlər öyrənilib.

# *Leyla ABDULLAYEVA:* "Ermənistan XİN-i "3+2" formatında qəbul edilmiş bəyanatlara qoşulmağa dəvət edirik"

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Azərbaycan xarici işlər nazirinin erməni tərəfi və/və ya ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçiriləcək görüşlər və atılacaq addımlara dair şərhləri "3+2" formatında qəbul edilmiş birgə bəyanatlara tam uyğun olaraq edilir. Sözügedən bəyanatlar isə açıq şəkildə iki ölkə əhalisinin sülhə hazırlanması zərurətini dəstəkləyir. Ermənistan rəhbərliyi anlamalıdır ki, mövcud status-kvo qəbuledilməzdir, dayanıqlı deyildir və bu proses həmişəlik davam edə bilməz.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva KİV-ə açıqlamasında bildirib.

Leyla Abdullayeva deyib: "Biz Ermənistan Xarici İşlər Nazirliyini "3+2" formatında qəbul edilmiş bəyanatlara qoşulmağa və daha praqmatik olmağa, eləcə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə etimad göstərməyə və dəstək nümayiş etdirməyə dəvət edirik.

Əgər Ermənistan tərəfi etimad quruculuğundan və danışıqlarda səmimiyyətin yaradılmasından bəhs edirsə, o zaman Azərbaycan tərəfində olduğu kimi onlar da qarşılıqlı etimadın yaradılmasına çalışmalı və buna uyğun şərhlər verməlidirlər. Eyni zamanda, onlar regionda sülh, sabitlik və rifahın yaradılması istiqamətindəki səylərə qoşulmalıdırlar".

# Azərbaycandakı diplomatik nümayəndəliklərin rəhbərləri Şamaxıya səfər ediblər

Xarici ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin rəhbərləri Prezident Administrasiyasının, Xarici İşlər Nazirliyinin və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə aprelin 19-da Şamaxı rayonuna səfər ediblər.

Səfərin məqsədi Şamaxı rayonunun sosial iqtisadi inkişafı, rayonda aparılan abadlıq-quruculuq işləri, o cümlədən turizm infrastrukturu ilə yaxından tanış olmaqdır.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində qonaqlar əvvəlcə Şamaxının qədim yaşayış məskənlərindən olan Dəmirçi kəndinə gəliblər. Burada onları rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov qarşılayıb. Qısa görüşdən sonra diplomatik nümayəndəliklərin rəhbərləri kənddə arxeoloji muzeydə, sənətkarlıq emalatxanasında, habelə məsciddə olublar. Onlara kənddə aparılan arxeoloji tədqiqatlar, III əsrə aid aşkar olunan qəbirlər, yerli ustalar tərəfindən hazırlanan sənət nümunələri haqqında, eləcə də həyata keçirilən yenidənqurma, tikinti-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Sonra qonaqlar Şamaxı Astrofizika Rəsədxanasına gəlib, aparılan elmi tədqiqat işləri ilə maraqlanıblar.

Diplomatik korpusun rəhbərləri Şamaxı şəhəri Səttar Bəhlulzadə küçəsində Vüqar Teyfurova məxsus evdə olublar. Qeyd edək ki, bu ev fevralın 5-6-da baş verən zəlzələ nəticəsində yararsız vəziyyətə düşmüşdü. Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilən operativ tədbirlər nəticəsində rayonda zəlzələdən zərərçəkən digər evlər kimi Vüqar Teyfurovun evi də yenidən tikilib. Rayon icra hakimiyyətin başçısı Tahir Məmmədov qonaqlara zəlzələnin nəticələri, vətəndaşlara dəyən zərərin aradan qaldırılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Sonra diplomatik korpusun rəhbərləri Azərbaycanın və Şərq memarlığının nadir incilərindən biri, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan, 743-cü ildə inşa edilən Şamaxı Cümə məscidinə gəlib, onun tarixi barədə maraqlanıblar.

Bildirilib ki, 1918-ci ildə silahlı erməni daşnak dəstələri tərəfindən törədilən mart qırğınları zamanı Şamaxıda da qanlı soyqırımı aktı həyata keçirilib. Ən böyük qırğın Cümə məscidində baş verib. Şamaxılıların Allah evi kimi məscidə sığındığını görən ermənilər burada yanğın törədərək təqribən 1700 günahsız insanı qətlə yetiriblər.

Diqqətə çatdırılıb ki, Şamaxı Cümə məscidi Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı təmir olunub. Bərpa və yenidənqurma işlərinə 2010-cu ilin martında başlanılıb. 2013-cü il mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məscidin açılış mərasimində iştirak edib.

Qonaqların sonuncu səfəri Meysəri şərab zavodu olub. Burada onlar zavodun fəaliyyəti, istehsal prosesləri barədə məlumatlandırılıblar.

Şamaxıya səfərdən aldığı təəssüratı AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşən Braziliyanın ölkəmizdəki səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz deyib: "Bu səfər Azərbaycan tarixini və mədəniyyətini öyrənmək baxımından çox əhəmiyyətlidir. Şamaxıya ilk dəfədir gəlirəm. İndi mənim bu bölgə barədə çox gözəl təəssüratlarım var. Bu yerlər çox səfalıdır. İnsanları da qonaqpərvərdir. Dəmirçi kəndində mətbəxinizin zənginliyinin bir daha şahidi oldum".

# Aprelin 22-dən banklar vətəndaşların kompensasiyalarını ödəməyə başlayacaq

Aprelin 22-dən banklar tərəfindən vətəndaşların kompensasiyalarının ödənilməsinə başlanılır.

Azərbaycan Banklar Assosiasiyasından AZƏRTAC-a bildirilib ki, kompensasiya ödənilməsi ilə bağlı müəyyən edilmiş mexanizmə əsasən, fəaliyyətdə olan bankların müştərilərinə həmin banklar vasitəsilə, bank olmayan kredit təşkilatı və ləğvetmə prosesində olan bankların müştərilərinə isə "Azərpoçt" MMC vasitəsilə ödənişlərin edilməsi həyata keçiriləcək.

Banklar tərəfindən 500 manatdan yuxarı məbləğdə kompensasiyanın verilməsini ödəniş kartlarına köçürməklə, 500 manat və ondan aşağı məbləğdə kompensasiyalar isə pul köçürməsi yolu ilə veriləcək. Kompensasiya ödənişləri məqsədilə fiziki şəxslərdən heç bir komissiya tutulmayacaq.

Kompensasiya ödənişlərinin edilməsi məqsədilə fiziki şəxslər növbəlilik prinsipi əsasında kompensasiyanın veriləcəyi yer, tarix və zəruri sənədlər barədə banklar tərəfindən əvvəlcədən SMS və ya zəng yolu ilə məlumatlandırılacaq. Fiziki şəxslər onlara ayrılmış vaxtda müvafiq banka yaxınlaşaraq kompensasiyanı əldə edəcəklər.

Bundan başqa, kompensasiya ödənişi ilə əlaqədar kredit təşkilatlarında vətəndaşların operativ şəkildə xidmət göstərilməsi üçün ayrıca sahə müəyyən olunmuş və müvafiq əməkdaşlar ayrılıb. Bu müddətdə banklar xüsusi iş rejimində işləyərək vətəndaşlara xidmət göstərəcək.

# Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi ABŞ-Azərbaycan Ticarət Palatasının üzvləri ilə görüşüb





Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi Emin Hüseynov ABŞ-Azərbaycan Ticarət Palatasının bəzi üzv şirkətləri və tərəfdaş təşkilatları ilə Palatanın Vaşinqton şəhərində yerləşən mənzil-qərargahında görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ABŞ-Azərbaycan Ticarət Palatasının üzv şirkətləri - John Deere, BP, CNFA, WCC International və tərəfdaş təşkilatları - İllinoys Ticarət Palatası, Xəzər Siyasət Mərkəzi (Caspian Policy Center), eləcə də Palatanın İdarə Heyətinin üzvləri və iqtisadi ekspertlər iştirak ediblər.

ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov tədbiri açaraq qonaqları salamlayıb və Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova Palata üzvləri ilə görüşdüyünə görə təşəkkür edib.

Daha sonra söz alan ABŞ-Azərbaycan Ticarət Palatasının Direktorlar Şurasının üzvü, əslən azərbaycanlı dr. Şapur Ənsari əsas qonağı salamlayıb, ABŞ-Azərbaycan Ticarət Palatasının tarixindən məlumat verib, Palatanın Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərdə oynadığı roldan bəhs edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynov çıxışında Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin genişləndiyini qeyd edib, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin dərinləşməsi və iqtisadi əməkdaşlıq perspektivlərinin müzakirəsi baxımından əhəmiyyətini vurğulayıb. O, ABŞ-a səfəri zamanı müxtəlif institutlarla keçirdiyi görüşlər barədə məlumat verib.

Emin Hüseynov çıxışında Azərbaycanda xarici şirkətlərin fəaliyyəti üçün çox əlverişli şəraitin mövcudluğunu qeyd edərək ABŞ şirkətləri üçün də ölkəmizdə münbit mühitin olduğunu vurğulayıb. O, çıxışı zamanı aprelin 3-5-də Çikaqoda keçirilmiş 1-ci İllinoys-Azərbaycan Kənd Təsərrüfatı Forumunun Azərbaycanın ABŞ ştatları ilə iqtisadi münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyətinin olduğunu bildirib. Bu baxımdan E.Hüseynov İllinoys Ticarət Palatası və ABŞ-Azərbaycan Ticarət Palatasının birgə fəaliyyətini təqdir edib.

Azərbaycan rəsmisi iqtisadi və biznes əlaqələrinin inkişafında təhsilin xüsusi əhəmiyyətini vurğulayıb. Azərbaycanın biliyə və tədqiqatlara əsaslanan iqtisadiyyat qurduğunu bildirən natiq bu sahədə ölkəmizin ali təhsil müəssisələrinin xüsusi rol oynadığını qeyd edib. Bu xüsusda o, ADA Universitetində tədqiqatlar üçün yaradılmış şərait və bu tədqiqatların nəticələrinin real biznesə tətbiqi barədə məlumat verib və nümunələr göstərib.

Görüş sual-cavab sessiyası ilə davam edib.

# Bakı Ali Neft Məktəbində Tələbələrin I Respublika elmi konfransları başa çatmışdır





Bakı Ali Neft Məktəbində (BANM) ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Tələbələrin I Respublika elmi konfransları başa çatmışdır.

Tədbirə BANM-in rəhbərliyi və professor-müəllim heyəti, eləcə də, BANM-in partnyorları olan SOCAR-ın Kompleks Qazma İşləri Tresti, SOCAR Polymer, Huawei, Maire Technimont, ABB, Microsoft, Emerson Process Management və Avandsis Group şirkətlərinin təmsilçiləri qatılmışdılar. Eyni zamanda konfranslarda iştirak etmiş və öz maraqlı prezentasiyaları ilə seçilərək qalib olaraq müəyyən edilmiş tələbə və gənc alimlər də iştirak etmişdilər.

Qonaqları salamlayan BANM-in rektoru Elmar Qasımov Ali Məktəbdə 15 aprel tarixindən etibarən keçirilən konfransların yekunu barədə məlumatları iştirakçıların diqqətinə çatdırmışdır. Çoxsaylı bölmələrdən ibarət üç geniş başlıq altında - Kimya və kimya mühəndisliyində perspektivlər, Keyfiyyətli enerji, keyfiyyətli xidmət və Yüksək texnologiyalar- innovativ tətbiqlər mövzuları çərçivəsində təşkil olunmuş konfranslara ölkəmizdə fəaliyyət göstərən ali təhsil müəssisələri və AMEA-nın institutlarını təmsil edən ümumilikdə 177 nəfər tələbə və gənc alimin müraciət etdiyini bildirən rektor hər bölmə üzrə uğurla çıxış etmiş qaliblərin BANM-in sertifikatları, eləcə də konfransa dəstək vermiş yerli və transmilli şirkətlərin qiymətli hədiyyələri ilə mükafatlandırılacaqlarını bildirmişdir. Hər bir iştirakçıya konfransda fəal iştirak etdikləri üçün təşəkkür edən rektor onlarda elmi-tədqiqatlara marağın bundan sonra daha da artacağından əmin olduğunu vurğulamışdır. Daha sonra 1-ci, 2-ci və 3-cü yerlərin qaliblərinə, həmçinin həvəsləndirici kateqoriya üzrə seçilmiş iştirakçılara sertifikat və hədiyyələr təqdim olunmuşdur.



***"Azərbaycan"***

# Prezident İlham Əliyev Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib

## "Bir kəmər, bir yol" layihəsi də mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsinə töhfə verəcək

***Əvvəli 1-ci səh.***

Dövlət başçısı müsahibəsində onu da vurğulayıb ki, müxtəlif ölkələri birləşdirən nəqliyyat layihəsinin təməlində geosiyasət dayanır. Bu, özlüyündə geosiyasi vəziyyətə təsir edir, sabitliyə töhfə verir və qarşılıqlı asılılıq yaradır: "Qonşularsız biz tranzit ölkəyə çevrilə bilmərik. Yəni bu, dövlətlərdən ibarət zəncirdir və biz Şərqdən Qərbə və Şimaldan Cənuba uzanan yolun üzərindəyik. Bununla da biz qitələri və ölkələri birləşdirir və daha da proqnozlaşdırıla bilən gələcək qururuq".

Prezident İlham Əliyev belə hesab edir ki, "Bir kəmər, bir yol" təşəbbüsü ölkələr və regionlar arasında iqtisadi əməkdaşlığı inkişaf etdirməklə yanaşı, təhlükəsizliyin bərqərar olmasına da mühüm töhfə verəcək: "Bu layihə mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərin, iqtisadi inkişafın gücləndirilməsi, ölkələrin çiçəklənməsi və xalqlararası təmasların təşviqi kimi nəcib ideyalara xidmət edir".

Azərbaycan İpək yolunun üstündə yerləşən dövlət kimi hətta iqtisadi layihələrdə sülh təşəbbüsləri irəli sürəndə qədim ənənələri, minillik tarixə sahib olan Çinlə ikitərəfli və çoxşaxəli beynəlxalq münasibətlərin inkişafına öz töhfəsini verir.

Çinlilər bizdən fərqli olaraq tarixən bir qədər qapalı olsalar da, bəşər sivilizasiyasının inkişafına əvəzsiz töhfələr veriblər. Bəşər tarixində ilk kəşflərin bir çoxu Çinlə bağlıdır. Çinlilər minillik ənənələrə, qədim dəyərlərə, ailə institutuna qiymət verən xalqdır. Azərbaycanla Çinin bir-biri ilə uzlaşan və bir-birini tamamlayan ortaq dəyərləri mövcuddur. Bu dəyərlər hər iki dövlətə eyni məqsədlərə köklənməyə, birgə iqtisadi əməkdaşlığa imkan verir. Prezident İlham Əliyev Çin rəhbərliyinin uzaqgörən və müdrik siyasəti nəticəsində bu ölkənin misilsiz nailiyyətlər əldə etdiyini müsahibəsində belə diqqətə çatdırmışdır: "Güclü iqtisadi inkişaf, ölkədaxili sabitlik və təhlükəsizlik, əhalinin yüksələn rifahı bunun aydın göstəricisidir. Biz Azərbaycanda Çinin müxtəlif sahələrdə əldə etdiyi böyük nailiyyətləri maraqla izləyirik".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan avtobus da istehsal edəcək

## Hacıqabul Sənaye Məhəlləsində ikinci avtomobil zavodunun təməli qoyulub

***Əvvəli 1-ci səh.***

Tədbir iştirakçıları Hacıqabul Sənaye Məhəlləsində sahibkarlar üçün yaradılmış şəraitlə tanış olublar. İştirakçılara məlumat verilib ki, məhəllədə dövlət tərəfindən sahibkarlar üçün bütün zəruri infrastruktur yaradılıb. 20 hektar ərazidə yaradılmış sənaye məhəlləsi 10 min kvadratmetr olan 4 istehsal təyinatlı binadan, 937 kvadratmetr olan inzibati və texniki binalardan ibarətdir.

Hacıqabul Sənaye Məhəlləsinin inzibati binası toplantı və təlimlərin keçirilməsi üçün iclas otağı, məhəllənin iştirakçılarına müxtəlif xidmətlər göstərəcək müasir ofis sahələri, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və sənaye məhəlləsinin idarəedici təşkilatının istifadəsi üçün nəzərdə tutulan sahələrdən ibarətdir. Sənaye məhəlləsində sahibkarlara mühasibatlıq, hüquq, bank və sığorta, poçt və internet, logistika, tibb xidmətləri göstəriləcək.

Məhəllədə ümumi dəyəri 60 milyon manatdan çox olan layihələr üzrə maşınqayırma, kompozit materialları, avtomobil, tikinti materiallarının istehsalı üçün avadanlıqlar, gübrə, plastik qablar, tikinti materialları istehsalında istifadə olunan avadanlıqların istehsalı sahələri yaradılıb. Bu layihələr çərçivəsində 900-dən çox iş yerinin açılması nəzərdə tutulur.

Hazırda istehsal sahələrində avadanlıqların yerləşdirilməsi və istehsala hazırlıq işləri aparılır.

Sonra Hacıqabul Sənaye Məhəlləsində Azərbaycan və İran nümayəndə heyətləri arasında işgüzar görüş keçirilib.

İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan və İran arasında siyasi və iqtisadi əlaqələrin yüksək səviyyədə olduğunu, əməkdaşlığın genişlənməsində Azərbaycan və İran prezidentlərinin siyasi iradəsini, qarşılıqlı səfərlərin və keçirilən görüşlərin əhəmiyyətini vurğulayıb. Şahin Mustafayev qeyd edib ki, ölkələrimiz arasında iqtisadi-ticarət əməkdaşlığı uğurla inkişaf edir. İki ölkə arasında ticarət dövriyyəsi ötən il 74 faiz, 2019-cu ilin ilk 2 ayında isə 4,5 dəfə artıb.

Azərbaycan və İran birgə layihələri çərçivəsində Neftçala Sənaye Məhəlləsində avtomobil istehsal edilir, Pirallahı Sənaye Parkında birgə əczaçılıq zavodu tikiləcək. Nazir Şahin Mustafayev iqtisadi sahədə əlaqələrin inkişafı üçün böyük potensialı qeyd edərək bu gün təməli qoyulan avtobus və yük avtomobilləri zavodunun növbəti uğurlu birgə layihə olacağına əminliyini vurğulayıb.

İqtisadi əlaqələrin inkişafında sənayenin mühüm rol oynadığını bildirən Şahin Mustafayev sənaye sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının tərkibində sənaye üzrə işçi qrupunun yaradılmasının mümkünlüyünü bildirib.

İranın sənaye, mədən və ticarət naziri Reza Rəhmani dost və qonşu ölkələr olan İran və Azərbaycanın dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən intensiv görüşlərinin və imzalanmış sənədlərin ölkələrimiz arasında əməkdaşlığın inkişafında mühüm əhəmiyyətini vurğulayıb. İqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin inkişafı istiqamətləri barədə fikirlərini bölüşən nazir qeyd edib ki, iki ölkə arasında sənaye, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də ticarət dövriyyəsinin artırılması üçün böyük imkanlar var.

İşgüzar görüşdə iqtisadi-ticarət, nəqliyyat-tranzit, sənaye, kənd təsərrüfatı və s. sahələrdə əməkdaşlığın inkişafı, birgə müəssisələrin yaradılması ilə bağlı fikir mübadiləsi aparılıb.

Tədbir çərçivəsində "Azərmaş" ASC ilə İranın "Maral Trailer" arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Sənəddə "Maral Trailer" şirkəti tərəfindən ilkin mərhələdə distribütor olaraq 1 il ərzində 500 ədəd müxtəlif qoşquların Azərbaycanda satışının təşkili, sonrakı mərhələdə isə bu cür qoşquların Azərbaycanda istehsalı nəzərdə tutulur.

Xatırladaq ki, bu il fevralın 9-da Hacıqabul Sənaye Məhəlləsində "Azərmaş"ın Rusiya Federasiyasının "Qaz Qrup" şirkəti ilə birgə həyata keçirdiyi layihə üzrə kommersiya və xüsusi təyinatlı avtomobillərin istehsalı zavodunun təməli qoyulub. İstehsal gücü ildə 1000 ədəd avtomobil olan zavodda 100 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Dəyəri 14 milyon manat, istehsal həcmi ildə 1000 ədəd avtomobil olan "QAZ" avtomobil zavodunda istehsal olunacaq avtomobillərin yarısı daxili bazarda satılacaq, qalan hissəsi isə üçüncü ölkələrə ixrac ediləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## *Ermənistanda kütləvi ixtisarlar:*

# 5 nazirlik ləğv olundu, 400-ə yaxın məmur işdən qovulur

## İşğalçı ölkədə ictimai-siyasi vəziyyət gərgin olaraq qalır

***Əvvəli 1-ci səh.***

Hətta iş o yerə çatıb ki, 2008-ci ildə konstitusiya quruluşunu devirmək ittihamı ilə təqsirləndirilmiş Ermənistanın sabiq prezidenti Robert Koçaryanı ömürlük həbs gözləyir. Belə ki, bundan əvvəlki çıxışlarında hazırkı hakimiyyəti sərt tənqid edərək özünü siyasi məhbus adlandıran Robert Koçaryanın adı qalmaqallı rüşvət cinayətində hallanır.

Yerli mətbuatın verdiyi xəbərə görə, Yerevanın Şenqavit rayon məhkəməsində iş adamı Silva Ambarsumyanın Ermənistanın sabiq prezidenti Robert Koçaryana qarşı 2 milyon dollar rüşvətalma iddiasının detalları ilə bağlı hazırlıq iclası keçirilib. Məhkəmədə Koçaryanın vəkillər komandasının üzvü Artyom Orbelyan bildirib ki, Silva Ambarsumyanın verdiyi ifadələr şər-böhtandır. Onun şəxsən Koçaryanla heç bir əlaqəsi olmayıb və onlar heç vaxt görüşməyiblər. Əgər Paşinyan keçmiş rəqiblərindən qisas alırsa, o zaman nə üçün ölkənin digər rəhbər şəxslərinə qarşı ittihamlar irəli sürülmür?!

"Lragir" qəzeti yazır ki, ərəb ölkələrində biznesi olan Silva Ambarsumyan keçən ilin noyabrında Ermənistana dəvət olunaraq xüsusi istintaq komitəsində dindirilib. Sonra onun Robert Koçaryanla üzləşməsi prosesi təşkil edilib. Silva Ambarsumyan bir daha bildirib ki, Koçaryan sabiq xarici işlər naziri Vardan Oskanyanın vasitəçiliyi ilə 1 mart hadisələrindən əvvəl ondan 2 milyon dollar alıb. Əgər Robert Koçaryanın cinayət materialına bu maddə də əlavə edilərsə, o zaman onu ömürlük həbs gözləyir.

Hakim Edik Avetisyanın sözlərinin də yer aldığı məqalədə qeyd olunur ki, bu cinayətlə əlaqədar bəzi şübhəli məqamlar var və Ambarsumyan bir daha Ermənistana gətirilib xüsusi istintaq komitəsində dindirilməlidir. Növbəti məhkəmə prosesi 6 ay sonra keçiriləcək.

Ermənistanda digər sahələrdə olduğu kimi, orduda da hansısa müsbətə doğru dəyişikliklər baş verməyib. Əksinə, görünən budur ki, erməni ordusunda vəziyyət getdikcə daha acınacaqlı xarakter alır. İşğalçı ölkədə əsgərlər arasında ölüm faktlarının da sayı artıb.

Bu günlərdə güllə yarası almış hərbçi Narek Safaryan ölüb. Onun Yerevanın Mikayelyan cərrahi xəstəxanasında əməliyyat vaxtı dünyasını dəyişdiyi bildirilib. Mətbuatın yazdığına görə, həmin hərbçi xəstəxanaya Kanaker hərbi hissəsinin qonşuluğundakı ərazidən gətirilib. Dəqiqləşdirmələrdən sonra məlum olub ki, intihar edən 24 yaşlı hərbçi Kotayk vilayətinin sakini idi. Məlumatı Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovannisyan da təsdiqləyib.

Daha bir növbəti qalmaqal isə hərbçilərin keyfiyyətsiz geyimləri ilə bağlıdır. Bu ölkənin Müdafiə Nazirliyinin hərbi polisi və hərbçilərin sosial müdafiəsi idarəsi ən böyük hərbi hissələrdən birində əsgərlər üçün nəzərdə tutulan minlərlə keyfiyyətsiz paltar aşkarlayıb. Faktla bağlı cinayət işi açılıb. Ermənistan mətbuatı bunun ilk hal olmadığını qeyd edir.

Bütün bu hallar cəmiyyətdə narazılıqları artırır. Hərbi hissələrdə baş verən ölüm faktları düzgün araşdırılmır. Məsələn, hələ doqquz il əvvəl qətlə yetirilən əsgər Artur Qazaryanın ölüm işi yenidən araşdırılacaq. Hərbçinin anası İrina Qazaryan bildirir ki, Nikol Paşinyan ilə görüşdə oğlunun ölüm faktının yenidən araşdırılacağına verilən vəd icra olunmaqdadır. Ancaq o, istintaq sistemi eynilə qaldığına görə cinayət işinin tam araşdırılacağına və günahkarların aşkarlanacağına hər hansı ümid bəsləmədiyini qeyd edib.

Hadisələrin bu səpkidə inkişaf etdiyi bir vaxtda Ermənistan parlamenti nazirliklərin sayının 17-dən 12-yə azaldılması ilə bağlı qərar verib. Qanun layihəsi 70 səs lehinə, 40 səs əleyhinə olmaqla qəbul edilib. Hakim "Mənim addımım" bloku istisna olmaqla, "İşıqlı Ermənistan" və "Çiçəklənən Ermənistan" fraksiyaları qanuna qarşı çıxıblar. Müxalifət bloku 5 nazirliyin ləğvi nəticəsində çox sayda insanın işsiz qalacağına etiraz edib.

"Joxovurd" nəşrinin yazdığına görə, müxalif qrupların nümayəndələri hökumətin bu addımının hansı effekt verəcəyi barədə hələ də xalqı məlumatlandırmayıblar. Bundan əlavə, onlar hökumətin bu addımının ölkə büdcəsinə nə qədər gəlir gətirəcəyi barədə dəqiq proqnozlar vermirlər.

Hakimiyyət isə ixtisarların dərhal həyata keçirilməyəcəyini iddia edir. Nəşr yazır ki, Kənd Təsərrüfatı Nazirliyindən 130, Mədəniyyət Nazirliyindən 110, Diaspor Nazirliyindən 80, İdman və Gənclər Nazirliyindən 80 işçi ixtisara salınacaq. Əvvəlcə 78 nəfərdən ibarət nazir müavinləri və şöbə müdirləri ixtisar ediləcək.

Bundan sonra isə işçilər arasında bal qiymətləndirilməsi keçiriləcək və daha sonra total ixtisarlar başlanılacaq. Rusiyanın qaz nəhəngi "Qazprom"un 100 faizlik törəməsi olan "Qazprom Ermənistan" şirkətində də ixtisarlar gözlənilir. Belə ki, 6 minə yaxın işçiyə sahib olan şirkət yaxın vaxtlarda şirkətdə çalışan müfəttişlərin 50, çilingərlərin 30, mərkəzi ofis işçilərinin isə 10 faizini ixtisar edəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İstehsal da artır, ixracın çeşidi də

***Əvvəli 1-ci səh.***

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı əvvəlki iki proqramda olduğu kimi, III Dövlət Proqramında da Füzuli rayonu üzrə nəzərdə tutulan bütün işlər yüksək səviyyədə icra edilmişdir. Rayonda cins heyvandarlıq, üzümçülük, tərəvəzçilik, meyvəçilik, toxumçuluq, iri taxılçılıq təsərrüfatları yaradılmış, aqrar sektorun inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazası möhkəmləndirilmiş, yeni yollar çəkilmiş, əhalinin elektrik enerjisi, təbii qaz, içməli su təminatı yaxşılaşdırılmış, geniş ərazidə meliorasiya-irriqasiya işləri görülmüş, torpaqların suvarma suyuna tələbatını təmin etmək üçün 72 subartezian quyusu qazılmış, abadlıq-quruculuq işləri davam etdirilmişdir.

Uğurlu illər sırasında 2018-ci ilin nəticələri xüsusilə fərəhlidir. Taxılçılıq sahəsində qazanılan nailiyyətlər təqdirəlayiqdir. Artıq yeddinci ildir ki, Füzuli taxıl istehsalına görə respublikanın 100 min tondan çox taxıl istehsal edən rayonları sırasında öz yerini qoruyub saxlayır. Keçən il 108217 ton taxıl istehsal edən "sarı kəhrəba" ustaları bu il də zəmilərdən bol məhsul gözləyirlər.

Dövlət başçısının respublikada ərzaq bolluğunun yaradılması, ölkə əhalisinin taxıla olan tələbatının daxili imkanlar hesabına ödənilməsini təmin etmək məqsədilə iri taxılçılıq təsərrüfatlarının yaradılması barədə tapşırıqları da uğurla yerinə yetirilir. Kənd təsərrüfatının inkişafı ilə bağlı Starateji Yol Xəritəsinə uyğun olaraq rayonda hər biri 1000 hektar olan 4 iri taxılçılıq təsərrüfatı, 500 hektar sahədə isə toxumçuluq təsərrüfatı yaradılmışdır. Aqroparkın istifadəsinə verilmiş 2.700 hektar sahədə isə müxtəlif kənd təsərrüfatı məhsulları əkilib-becərilir.

Taxılçılıqla yanaşı, kənd təsərrüfatının digər sahələrinin inkişafına da böyük önəm verilir. Ənənəvi sahələr olaraq pambıqçılığın və baramaçılığın dirçəldilməsi üçün zəruri tədbirlər görülür. Keçən il rayonun təsərrüfatlarında 2.220 tondan çox "ağ qızıl" istehsal olunmuşdur. Bu il isə hədəf azı 2.500 ton pambıq istehsal etməkdir. Hazırda təsərrüfatlarda çiyid səpini yüksək aqrotexniki qaydalar əsasında davam etdirilir.

Rayonda gəlirli sahə olan baramaçılığa da maraq böyükdür. Ötən il 37.5 ton barama istehsal edən kümçülərin qayğılı günləri başlayır. Təxminən bir ay ərzində çəkilən zəhmətin qarşılığında kümçülərin keçənilki qazancı 340 min manat olmuşdur. Rayonda barama istehsalını daha da artırmaq üçün etibarlı yem bazası var. Baramaçılığın inkişafında təcrübəli kümçülərin rolu böyük əhəmiyyət kəsb edir. Onlardan biri - Böyük Bəhmənli kənd sakini Ağgül Bağırova barama istehsalında əldə etdiyi yüksək nəticəyə görə Prezidentin sərəncamı ilə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.

Göstərilən qayğı və diqqətin, yaradılan əlverişli şəraitin nəticəsidir ki, bölgədə sahibkarlıq sürətlə inkişaf edir, "Azərxalça" ASC-nin Horadiz şəhərində fəaliyyət göstərən filialında qədim Qarabağ çeşniləri ilə toxunan nəfis xalçalar "Made in Azərbaycan" brendi ilə artıq dünyanın müxtəlif ölkələrinə ixrac olunur.

Horadiz-Arayatılı yolunun kənarında 10 hektar sahəni əhatə edən müasir istixana kompleksində 30 nəfər çalışır. Burada ilin bütün fəsillərində yetişdirilən keyfiyyətli pomidor və xiyar xarici ölkələrə də göndərilir.

Hazırda rayonun təsərrüfatlarında yaz-tarla işlərinin qızğın çağıdır. Dövlətin qayğısından güc alan, Azərbaycan Ordusunun qüdrətinə güvənən füzulililər ölkəmizin iqtisadi qüdrətini artırmaq üçün əllərinin hərarətini əsirgəmirlər.

***Lazım QULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Qadın iradəsi



## Zəriflərin dünyası

**Zərafət dünyasının incisi qadın...**
**Saflığın, məsumiyyətin təcəssümü...**
**Yoxdan var eyləyən, dünyanı sonsuzlaşdıran...**
**Bəzən dünyanın xoşbəxti, bəzən isə çiyinlərinin yükü dağlardan ağır qadın...**
**Yaradan qadınları elə əzmkar, iradəli xəlq edib ki, onların bu dünyada bacarmayacaqları, öhdəsindən gələ bilməyəcəkləri heç bir iş yoxdur. Yeri gələndə məsuliyyətli vəzifənin daşıyıcısı, yeri gələndə əlinə silah alıb torpaqlarının müdafiəçisi, bəzən sülh carçısı, zərif toxunuşu ilə dünyanı gözəlləşdirən simvol olurlar...**

### *İradə Gülməmmədova*

İradə Gülməmmədova 30 sentyabr 1962-ci ildə Şuşa şəhərində anadan olub. 1979-cu ildə orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda pediatriya ixtisası üzrə təhsil alıb.

1986-cı ildə Bakı şəhər 6 saylı uşaq xəstəxanasında pediatr-interna olaraq çalışıb. İradə Gülməmmədova 1986-cı ildən 1995-ci ilə qədər Balakən rayon xəstəxanasında pediatr-neonotoloq işləyib. Yeni Azərbaycan Partiyasının üzvüdür.

1995-2006-cı illərdə Abşeron rayon uşaq poliklinikasının baş həkimi olan İradə Gülməmmədova 2006-2014-cü illərdə Abşeron Rayon İcra Hakimiyyəti başçısının müavini, 2014-2015-ci illərdə isə birinci müavini vəzifələrində çalışıb. 2015-ci ildən Prezident İlham Əliyevin sərəncamı ilə Abşeron rayonunun icra başçısı vəzifəsinə təyin edilib.

Ailəlidir, iki övladı, üç nəvəsi var.

*O da yüksək vəzifə sahibidir, həm də pediatrdır, anadır, nənədir...*

*Ömür yolundan danışdıqca fikirlərinin istiqaməti elə hey dönüb, dolaşıb Şuşanın üzərinə qayıdır...*

*Elə xoşbəxt anlarına kölgə salan acı xatirələri də, ürəyindən süzülüb dodaqlarında qubara çevrilən duyğuları da, gözlərində selə çevrilən göz yaşları da Şuşa ilə bağlıdır...*

*Qəmli xatirələrini çoxdan kökdən düşmüş pianosunun yaralı notlarında çırpınan və heç vaxt çalınmamış Şuşa həsrətli bir musiqi müşayiət edir...*

*...Bu gün bütün dünyada gedən proseslər göstərir ki, Azərbaycan qadını öz ölkəsinin əmin-amanlığı, sabitliyi, övladlarının səadəti, xoşbəxtliyi naminə dövlətimizin yürütdüyü daxili və xarici siyasətə yüksək dəyər verir. Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında da qadınların rolu durmadan artır. Ölkəmizdə elə bir sahə yoxdur ki, orada qadınlar çalışmasın. Onlar öz vətəndaş mövqeyini əmək fəaliyyətlərini uğurla davam etdirməkdə görürlər. Bir sözlə, Azərbaycan qadınları tükənməz enerji ilə doğma ailələrində ömürlərinin şərəfli səhifələrini yaşamaqla bərabər, idarəetmə fəaliyyətində də böyük fədakarlıq göstərirlər.*

*Belə fədakar qadınlardan biri Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova "Zəriflərin dünyası"ndadır...*



*...Bu ömür yolunun uşaqlığı, təhsili, analı-atalı olan dünyasının ən gözəl zamanları, müdrik el ağsaqqalı mötəbər babasının, şəhərin təhsil sistemində sanballı izi, adı olan xalasının, qohum-əqrəbasının əhatəsindən başladı. Dünya şəhərləri içərisində Romaya, Vyanaya tay tutulan şəhərin mədəni səviyyəsi onun qanına, canına, ədəb-ərkanına hopdu. Fəxr etdi ki, Şərqin ilk konservatoriyası Şuşadır, öyündü ki, Üzeyirin vətənidir. Eşitdi ki, muğamların çağlayan səsi bu ellərdən başlayır. Qürur duydu ki, 200 nəfərdən çox ədib, bəstəkar, rəssam, heykəltəraş, şair, dramaturq, elm xadiminin vətənidir. Öyündü ki, ilk dəfə fransız dili, rus dili məktəblərdə 1830-cu ildən tədris edilir.*

*Məktəb həyatını uğurlu saydı, musiqi təhsili aldı, poeziya və musiqi bayramlarında böyük şəxsiyyətlər gördü, şuşalılara lazımi və gərəkli insan kimi yetişdi. Onun ilk qönçəli dünyası zəriflik yollarında pöhrələndi, çiçəkləndi.*

*Şuşanın hər bir ailəsində elmlə, təhsillə, mədəniyyətlə bağlı insanlar çoxdur. İradə xanımın qayda-qanunlu ata, anası Zümrüd müəllimənin sığallı, nəvazişli ailə tərbiyəsi ailənin hər bir üzvü kimi, onun da uğurlarına hesablandı.*

*Doğulub boya-başa çatdığı doğma Şuşa haqqında danışanda kövrək hislər yaşayır İradə xanım. Elə söhbətə də Şuşa ağrısı ilə başlayır...*



### "Şuşa ilə bağlı bütün xatirələrim kövrəkdir..."

- Şuşa şəhəri Azərbaycanımızın, doğma Qarabağımızın cənnət guşələrindən biridir. Bu torpaqda, bu yurdda doğulan hər bir insanın vətən sevgisi, yurd həsrəti, torpağa bağlılığı kövrək hislərlə yaşanır indi. Şuşalı olmağımla həmişə fəxr etmişəm. İki övladım, üç



nəvəm var. Bu dünyanın hər üzünü görmüşəm. Hamımıza doğma, əziz olan Azərbaycanımız nə qədər inkişaf edib gözəlləşsə də, onun köksündə bir sağalmaz yara asılıb. Bu, Qarabağ yarasıdır! Bu, 20 faizdən çox işğal olunmuş torpaqlarımızın ağrısıdır, acısıdır! Xoşbəxt, bəxtəvər günlərim Şuşa həsrətində itib-batıbdır. Dönüb keçmişə baxanda doğma el-obamın həsrəti qəlbimi göynədir. Yüzlərlə, minlərlə insanın qəlbində bir istək, bir arzu var: işğal olunmuş o torpaqlara qayıtmaq, o torpaqlarda uyuyan doğmalarının məzarını ziyarət etmək. Qarabağın cənnət guşələrindən olan Şuşa şəhəri öz gözəlliyi, füsunkarlığı ilə hər birimizin yaddaşında əbədi iz salıb. Hər dəfə doğmalarıma deyirəm ki, nə qədər ömrümüz var, imkan verməyək ki, o yurdumuz unudulsun. Bu gün əslən şuşalı olub, o yurdda doğulmayan hər kəsə Şuşa sevgimizi gilə-gilə, damla-damla ötürməliyik. Şuşada 17 məhəllə olub. Hər məhəllənin öz bulağı, hamamı, məscidi olub. Şuşanın o çınqıllı, daşlı-kəsəkli yollarını, hər cığırını biz öz övladlarımıza tanıtmalıyıq. Şuşada uşaq vaxtı keçirdiyim o qədər möhtəşəm günlərim olub ki, heç vaxt yadımdan çıxmır. Biz Şuşanın məşhur Çuxur məhəlləsində yaşayırdıq. Evimizin aşağı tərəfindəki yol düz gedib çıxırdı Daşaltı çayına, Qızılqayaya, Topxana meşəsinə. Evimizin yanındakı Leyli qayasındakı daşın üzərində uşaq vaxtı o qədər sürüşərdik ki... Şuşaya yaz gələndə o qədər sevinərdik ki... Çünki əsrarəngiz gözəlliyə malik Şuşanın yazı bir başqa möcüzə idi.



### "Məni böyüdüb tərbiyə verən, əziyyətimi çəkən xalamın tələbkarlığı bugünkü həyatımda mühüm rol oynayıb..."

- Mən Şuşada ziyalı ailəsində anadan olmuşam. Anam müəllimə idi, indi rəhmətə gedib. Allah dünyasını dəyişən bütün analara rəhmət, yerdə qalanlara isə ömür versin. Atam isə Şuşada Dağlıq Qarabağ üzrə ticarət kompleksinin müdiri işləyirdi. Amma məni, bütün şuşalıların bu gün böyük hörmətlə xatırladığı, Şuşanın təhsil sistemində kimya-biologiya fənnini tədris edən, mükəmməl bilikli xalam Diliş Mehdiyeva böyüdüb. Analarını erkən itirdikləri üçün xalam ailə qurmamış, öz ömrünü atasına, bacı-qardaşlarının təlim-tərbiyəsinə həsr etmiş, mənim təhsilimə böyük diqqət göstərmişdir. Şuşanın ən savadlı kimya-biologiya müəllimlərindən biri kimi Diliş Mehdiyevanın yetirmələrinin səsi-sorağı daim yüksəklərdən gəlib. Mənim təlim-tərbiyəmdə onun xüsusi rolu olub. Həddən artıq tələbkarlığı, yüksək səviyyədə əvəzolunmaz məsləhətləri bu ömür yollarında daim mənim yoluma bir mayak kimi işıq saçıb, həyatımı düzgün istiqamətdə qurmağıma möhkəm zəmin yaradıb. Çox təəssüf ki, mən xalamı çox cavan - 45 yaşında itirdim. Amma o, mənim qəlbimdə və həyatımda heç vaxt unuda bilməyəcəyim silinməz izlər qoydu. Düşünürəm ki, onun verdiyi öyüd-nəsihət, təlim-tərbiyə, tələbkarlıq və məsuliyyət sayəsində bu gün bütün çətinliklərə sinə gərməyi, həyatda uğur qazanmağı bacarmışam. Məzarı nurla dolsun!

### "Ailəmizdə ciddi və nizamlı tərbiyə üsulu var idi..."

- Ailədə beş bacı-qardaş idik. Valideynlərimiz təhsilimizlə daim maraqlanırdı. Hətta dərslərimizdən "4" qiyməti alanda o qədər danlanardıq ki, qorxudan evə getmək istəmirdik. Ona görə də çalışırdıq ki, bütün fənlərdən "5" alaq. Orta məktəbi bitirərkən bədən tərbiyəsi fənnindən "4" aldığım üçün qızıl medal ala bilmədim. Hələ şagird ikən ümumrespublika kimya-biologiya olimpiadasında biologiya fənni üzrə birinci yeri tutmuşdum. Bizim tərbiyəmizlə bağlı evimizdə ciddi nizam-intizam hökm sürürdü. Hər günün öz proqramı var idi. İstədiyimiz vaxt qohum-qonşu evinə gedə bilməzdik. Hər həftənin beşinci günü bizi kinoteatra aparardılar. Kitabxanadan kitab götürüb oxumağımız ən sevimli məşğuliyyətimiz idi.

Şuşanı Cənubi Qafqazın konservatoriyası adlandırırdılar. Bu isə əbəs yerə deyildi. Şuşada elə bir adət-ənənə formalaşmışdı ki, hər evdən bir nəfər də olsa musiqi təhsili almalı idi. Mən də bu ənənəyə sadiq qalaraq 7 il musiqi məktəbində piano dərsi aldım. Özüm kiçik əsərlər belə yazırdım. Hətta bir əsərimə görə mükafat olaraq Osman Sarıvəllinin kitabını vermişdilər. Bu, mənim aldığım ən dəyərli hədiyyə kimi xatirəmdə və qəlbimdə daim yaşayır. Şuşada olarkən zəngin kitab fondum var idi ki, əksəriyyətini də dünya ölkələrindən gətirmişdim. Kitabların çoxu simfonik əsərlərlə bağlı idi. Valideynlərim çox istəyirdi ki, musiqi təhsili alım, konservatoriyaya qəbul olunum. O vaxt böyük bacım Tibb İnstitutunda oxuyurdu, həmin ərəfədə mən də fikrimi dəyişdim. İstədim ki, bacım kimi həkim olum. Beləcə, sənədlərimi Tibb İnstitutuna verdim və pediatriya fakültəsinə qəbul olundum.



### "Düşünmədən yenə onu seçərdim..."

- Tibb İnstitutunu əla qiymətlərlə bitirib internaturada 6 nömrəli Uşaq Xəstəxanasında həkim kimi fəaliyyətə başladım. Elə həmin dövrdə də ailə həyatı qurdum. Həyat yoldaşımla bir fakültədə oxuyurduq. İlk tanışlığımız da elə tələbəlik illərindən başladı. Ailə qurduq. Çox gözəl ailəm var. Heç peşman olmadım və bugünkü ailə həyatımdan çox razıyam. Bəlkə sual versəydiniz ki, yenidən gənc olsaydınız, yenə həmin şəxsi seçərdinizmi? Düşünmədən deyərdim ki, bəli, seçərdim. Hər ikimiz həkimik, həyata baxışlarımız üst-üstə düşür, bir-birimizi baxışlarımızdan çox gözəl anlayırıq. Yoldaşım əslən gürcüstanlıdır. Toyumuz Şuşada olmuşdu və mən oradan Gürcüstana gəlin köçmüşdüm. 10-15 gün orada qaldıqdan sonra təhsilimizlə bağlı yenidən Bakıya qayıtdıq. İnternaturanı bitirdikdən sonra yoldaşımla birgə təyinatımızı Balakən rayonuna verdilər. Mən doğum evində neonotoloq, yoldaşım isə Balakənin Tülü kəndində məntəqənin baş həkimi və pediatr kimi fəaliyyətə başladı.



### "Ən çətin zamanlarımda yoldaşım mənə dayaq oldu..."

- İlk əmək fəaliyyətinə başladığım bir rayon kimi Balakənin öz yeri var mənim üçün. 1986-cı ildə Balakənə gələrkən qızım bir aylıq körpə idi. İlk zamanlar çox çətin idi, heç kimi tanımırdıq, kirayədə olurduq. Heç analıq məzuniyyətinə də çıxmamışdım. Səhərlər qızımı şəkili bir dayənin yanına qoyur, özüm isə işə gedirdim. Rayonda cəmi bir doğum evi var idi, neonotoloq da təkcə mən idim. O vaxtlar evdə doğulanların sayı çox olurdu. Elə həftələr, günlər olurdu ki, gecənin bir saatını yatırdım, ya yox. O dövr hər şey çox çətin idi, müəyyən avadanlıqlar yox idi, şərait münasib deyildi. Xəstə uşaqlar, çətin doğuşlar çox olurdu. Təbii



ki, çətin doğuşla dünyaya göz açan uşaqlarda travmalar olurdu. Onların hamısına baxmaq, müalicə etmək böyük əmək və zəhmət tələb edirdi. Ona görə də bəzən evə belə gedə bilmirdim. Bütün bu çətinliklər zamanı yoldaşım mənə böyük dəstək olurdu. Uşağın bütün əziyyətlərini mənimlə birgə çəkirdi. Bir həkim kimi də savadlı idi. Bütün Balakəndə onu hamı yaxşı həkim kimi tanıyırdı. 10 ilə yaxın Balakəndə işlədik.

### "Mənə etimad edilib, buradakı insanların müqəddəratı tapşırılıb..."

- Balakənin qonaqpərvər insanları ilə çox doğmalaşmışdıq. Orada özümüzə çoxlu dostlar qazanmışdıq, bugünə qədər də dostluğumuz davam edir. Amma ailəmiz, bütün bacı-qardaşlarımız Bakıda yaşayırdı. 1995-ci ildə biz Bakıya köçdük. Həmin ildən Abşeron rayonundakı uşaq poliklinikasında baş həkim kimi fəaliyyətə başladım. Həyat yoldaşım hər sahədə mənə həmişə öz köməyini göstərib və heç bir zaman qadağalar qoymayıb.

Mənə Abşeron Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavin vəzifəsi təklif olunanda yoldaşım əvvəl tərəddüd etdi. Dedi ki, sənin üçün çətin olacaq, birdən bacarmazsan. Müəyyən narazılıqlar olsa da, atam mənə dəstək oldu və idarəetmədə çalışan həkim üçün heç bir problemin olmayacağı ilə bağlı yoldaşımı razı saldı.

Həyatımda ən böyük dəstəyi isə Prezident İlham Əliyevdən və Birinci vitse-prezident Mehriban xanım Əliyevadan görürəm. Mehriban xanım Əliyevanın Azərbaycanın həyatındakı çoxşaxəli fəaliyyəti, xeyirxahlıq missiyası, mədəniyyətimizin bütün dünyada təbliği sahəsində gördüyü genişmiqyaslı işlər qadınlara əsl örnəkdir. Mehriban xanım Əliyevanın həyata keçirdiyi böyük missiya Azərbaycanda qadın hüquqlarının yüksək səviyyədə təmin edilməsinə sübutdur. Bir sözlə, bu gün qadınlar yaranmış imkanlardan və şəraitdən istifadə etməlidirlər. Qadınlar diqqət və qayğıdan yararlanaraq yaxşı ana, nümunəvi həyat yoldaşı və ümumbəşəri ideallara sadiq layiqli vətəndaş olmalıdır. "Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəkdir" deyən Prezident İlham Əliyevin etimadını doğrultmaq üçün var qüvvəmlə çalışıram. Bu gün ən böyük və ən çətin rayon olan Abşeron rayonuna başçılıq etməyim məsuliyyətimi artırır və çalışıram ki, Prezidentin bu etimadını daim doğruldam.

Cənab Prezident hər dəfə rayona gələndə yeniliklərlə maraqlanır. Görülən işlər haqqında dövlət başçısına məlumatlar verilir, tapşırıqlar vaxtında yerinə yetirilir. Cənab Prezident bu vəzifəni mənə etibar edib, Abşeronda yaşayan insanlara xidmət göstərməyi tapşırıb.

### Yeganə qadın icra başçısı

*İradə Gülməmmədova respublikamızda yeganə qadın icra başçısıdır. Onun işgüzarlığı, prinsipiallığı, hər bir məsələyə ədalətli münasibəti dövlət idarəetməsinə gətirib çıxardı. Vəzifə səlahiyyətləri ilə onun zərif qadın dünyası arasında görünən mərhəmət, insanlara kömək etmək, qayğı göstərmək kimi ali hislər birləşir.*

*Bu səbəbdəndir ki, çoxlarının diqqəti və marağı Abşeron rayonuna yönəlib. Vəzifədə olan qadınlardan ikiqat diqqət və məsuliyyət gözlənilir.*

- Dünyaya dahilər, qəhrəmanlar bəxş edən qadınlar nəcib əməyi, zövqü və səliqəsi ilə daim misilsiz xidmətlər göstərirlər. Adi davranış qaydalarından tutmuş geyiminə, saçının quruluşuna qədər ən xırda nüanslara belə ciddi şəkildə riayət etməlidir hər bir qadın. Rəhbər vəzifədə işləyən hər bir qadın öz geyimi, davranışı ilə hər kəsə nümunə olmalıdır. Abşeron rayonunun yarım milyondan çox əhalisi var. Özü də ki, Abşeron - Novxanı, Goradil, Digah, Qobu, Hökməli kimi qədim kəndləri, tarixi ənənələri olan bir rayondur. Bu rayonda xalqımızın adət-ənənəsini özündə yaşadan nə qədər ağsaqqallarımız, ağbirçəklərimiz var. Gərək bu əhalinin qarşısına elə çıxasan ki, onlar sənə hörmətlə yanaşsınlar, rəğbət göstərsinlər. Onlarla ünsiyyətdə o qədər ehtiyatla davranmalısan ki, insanların qəlbini incidəcək heç bir hərəkətə yol verməyəsən. Şəhid ailələri ilə görüşəndə kədəri onlarla birgə yaşayıram. Əlil, xəstə insanlara kömək etməyi vəzifə sahibi kimi yox, bir insan kimi borclu sayıram. Köməksizə əl tutanda özümü rahat hiss edirəm.

İlk növbədə çalışıram ki, geyimim nümunəvi olsun. Bahalı paltarlar geyinmirəm, adi geyimlər tikdirirəm, adi saç düzümü edirəm. Çalışıram ki, milli adət və ənənəmizə uyğun davranış normalarına riayət edim. Malik olduğumuz milli dəyərləri qorumaq bizim mənəvi borcumuzdur.

### "İnsan yaşa dolduqca daha kövrək olur..."

- İşimlə ailəm arasında daim bir tarazlıq yaratmağa çalışıram ki, heç birində problem yaşanmasın. Övladın tərbiyəsində əsas məsuliyyət ananın çiyinlərində olur. Bu səbəbdən də onların təlim-tərbiyəsi, təhsili ilə daim yaxından məşğul oluram. Bacardığım qədər valideyn iclaslarına özüm gedirdim. Övladlarımla yoldaşım arasında daim vasitəçi rolunu oynamışam. Hətta oğlum atadır, iki övladı var, yenə də vasitəçilik mənə aiddir.

Üç nəvəm var. Nəvələrimin təhsilinə diqqət yetirməyə vaxt tapıram, hər gün



dərsləri ilə maraqlanıram. Qız nəvəm Ayla məni məktəblərindəki tədbirə dəvət edir, nə vaxtsa gedəcəyimə söz vermişəm...

Bir övlad kimi öz mənəvi borcumu da yaxşı başa düşürəm. Hər gün ağsaqqal atama zəng edirəm, vaxt tapıb həftədə bir dəfə də olsa baş çəkirəm. Atam bu gün də mənim məsləhət verənimdir. Atam bütün övladları ilə ünsiyyət saxlamağı çox istəyir. İnsan yaşlaşdıqca daha kövrək olur. Bəlkə də doğma Şuşamız işğal altında olmasaydı, atam bu qədər kövrək olmazdı. Əzizlərimizin qəbrini ziyarət edə bilməməyimiz hər birimizin ən ağrılı yeridir. Qəbir üstünə gedəndə sanki insan yüngülləşir, təskinlik tapır. Bu gün atam belə nisgili qəlbində yaşadır.

### "O səs anamın səsi..."

- Hansı vəzifədə olmasına baxmayaraq, qadın həm anadır, həm övladdır, həm yoldaşdır. Qadın evinin xanımı, həm də bütün işlərin idarə edilməsinə məsuliyyətlə yanaşandır. Ev işləri, ailə qayğıları. Hər işi çalışıram ki, özüm görüm. Bəzən baxıram ki, iş başımı elə qatıb ki, artıq gecə saat 2-dir.

Özümlə tək qaldığım anlar da olur. Mən şair deyiləm, analı günlərimi arzu edəndə, uşaqlığımı, məktəb illərini xatırlayanda bu misralar keçir xəyalımdan:

Bir quş olub uçardım, səmalarda süzərdim,
Yazın gözəl çağında, quşlar cəh-cəh vuranda
Qarabağda olaydım.
Yazdığım şeirləri, qoşduğum nəğmələri
Çuxur məhəllədəki göz açdığım o evdə
Dinləmək istəyərdim.
Gecə səssiz, qaranlıq, xəyallar çox dolaşıq,
Səsin gəlmir heç yerdən...
Qəlbimdən tək səs gəlir,
O səs xəyallarımın,
O səs istəklərimin,
O səs anamın...
O səs Qarabağımın səsi...



- Şuşa tez-tez yuxularıma girir. Qəribədir ki, burada tanıdığım insanları da Şuşada görürəm. Şuşada olduğum o son günü isə heç cür unuda bilmirəm. 1991-ci ildə Balakəndən Şuşaya gedirdik. Ağdamda atam gəlib bizi qarşıladı. Həmin vaxt vəziyyət çox gərgin idi. Ermənilər yolları kəsir, insanları atəşə tuturdular. Şuşa yoluna çıxanda bizim də maşını atəşə tutdu ermənilər. Qızımın başını oturacağın altına əydim, bədənimlə üzərini örtdüm ki, güllə mənə dəysin, ona yox. Çox çətinliklə gəlib çıxdıq Şuşaya.

Şuşada qaldığımız on gün müddətində ermənilər hər gün şəhəri atəşə tuturdular. Hər an mərmilərin evə düşmək təhlükəsi var idi. Bizim evlə Topxana meşəsi üzbəüz idi, meşənin yanındakı kənddən Şuşaya atəş açırdılar.

### "Ürəyimdəki o nəğmə..."

- Həyatımda musiqinin özünəməxsus yeri var. Üzeyir Hacıbəylinin, Qara Qarayevin simfonik əsərlərinə, Xan Şuşinskinin, Rəşid Behbudovun səs yazılarına qulaq asmaqdan doymuram, amma piano arxasında axırıncı dəfə nə vaxt oturmağım yadıma gəlmir. Baxmayaraq ki, evdə pianom var. Ailə quranda həmin pianonu Şuşadan cehiz gətirmişdim. Bəzən sakit vaxtlarımda istəyirəm ki, piano arxasına keçib çalım, amma onda da çox kövrəlirəm, çala bilmirəm. Şuşadakı xatirələrim düşür yadıma.

O günü səbirsizliklə gözləyirəm, bəlkə Şuşaya qayıdaram, bax, onda piano arxasına keçib ürəyimdəki o nəğməni çalaram...

Azərbaycan bu gün regionun ən qüdrətli ölkəsidir. Bugünkü kimi heç zaman Azərbaycan iqtisadi, hərbi, sosial, mədəni sahələrdə güclü olmamışdır. Ölkə rəhbərinin layihələri, təşəbbüsləri, hər sahədə islahatları, ölkəmizin inkişafına və vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşmasına xidmət edir.

İnanıram ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli, müdrik, diplomatik gücü sayəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapacaq, işğal altında olan torpaqlarımız azad olunacaq, üçrəngli müqəddəs bayrağımız Şuşada, Laçında, Ağdamda, bütün işğal olunan ərazilərdə yenidən dalğalanacaq, Azərbaycan zəfər bayramını qeyd edəcəkdir!



*Kövrək, həssasdır qadınlar...*

*Hadisələrə daha emosional yanaşır, qərar verəndə də o duyğularla hərəkət edirlər...*

*Bütün hadisələrə ürək güzgüləri ilə baxırlar...*

*Hansı vəzifədə olmalarına baxmayaraq, müqəddəs anadır qadınlar...*

*Elə İradə Gülməmmədovanın dünyası da zərifdir, incədir. Amma bircə fərqlə: vəzifə icra edəndə qəti və prinsipial, evinin xanımı olanda, nəvələrinə nağıl danışanda isə həssas, duyğulu və kövrək...*

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Sağlamlıq imkanları məhdud uşaq və gənclərin, sosial müəssisə sakinlərinin sərgisi təşkil olunub
















Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Dənizkənarı Milli Parkda yerləşən "Elektra Events Hall"da nazirliyin sosial müəssisələrinin sakinlərinin, əsasən sağlamlıq imkanları məhdud uşaq və gənclərin "Bahar sevincləri" adlı sərgisi və konsert proqramı təşkil olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev belə bir sərginin nazirlik tərəfindən son bir il ərzində artıq üçüncü dəfə keçirildiyini bildirib. O, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaq və gənclərin reabilitasiya və cəmiyyətə inteqrasiya imkanlarının artırılması istiqamətində tədbirlərin ildən-ilə genişləndirildiyini vurğulayıb. Nazir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu sahədə xüsusi dəstəyini qeyd edib, fondun həssas qruplardan olan insanların qayğı ilə və reabilitasiya tədbirləri ilə əhatə olunmasında yaxından iştirak etdiyini bildirib. S.Babayev nazirliyin sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində nümunəvi yaşayış və reabilitasiya şəraitinin yaradılmasının da Heydər Əliyev Fondunun müvafiq proqramı çərçivəsində reallaşdığını diqqətə çatdırıb.





"Bahar sevincləri" şənliyində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən sosial müəssisə sakinləri, ictimai birliklər, nazirliyin himayəsində olan inklüziv teatr və yaradıcılıq birlikləri öz yaradıcılıq bacarıqlarını nümayiş etdiriblər.

Leyla Əliyeva sağlamlıq imkanları məhdud uşaq və gənclərin, sosial müəssisə sakinlərinin əl işlərindən ibarət sərgiyə baxıb. Rəssamlıq, bədii oyma, toxuculuq növləri üzrə təqdim olunan əl işlərində müəlliflərin həyata nikbin baxışları, arzu və düşüncələri, vətənə sevgi hisləri, Azərbaycan təbiətinin gözəllikləri, zəngin milli-mənəvi dəyərlərimiz ifadə olunub.

Qeyd edilib ki, hər bir sosial müəssisədə sakinlərin yaradıcılıq meyilləri nəzərə alınmaqla müxtəlif dərnəklər, təlim kursları təşkil olunub, onların müvafiq incəsənət sahələrində bacarıq və qabiliyyətləri inkişaf etdirilir. Həmçinin musiqi və rəqs təlimi kursları təşkil olunub, əlilliyi olan şəxslərdən ibarət musiqi və rəqs kollektivi yaradılıb, onlar üçün xüsusi rəqs və səhnə geyimləri və musiqi repertuarları hazırlanıb. Sosial müəssisələrdən və sığınacaqlardan olan uşaq və yeniyetmələr üçün mütəmadi olaraq xüsusi ekskursiyalar və təlim kursları təşkil edilir, onların düzgün tərbiyəsi, mənəvi inkişafı və cəmiyyətə inteqrasiyası üçün məqsədyönlü strategiya həyata keçirilir. Əl işlərinin müəllifləri ilə söhbət edən Leyla Əliyeva onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Milli kulinariya guşəsində uşaqlar qutab bişirmə, yuxa yayma, düşbərə bükmə qabiliyyətlərini nümayiş etdiriblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti xalçaçılıq guşəsi ilə tanış olub, xalça toxuyan gənclərlə söhbət edib.

Sonra konsert proqramı təqdim edilib. Gözdən əlilliyi olan Gülnar Rəhimova, Seymur Əliyev və Gülnar Novruzova mahnılar ifa edib, sağlamlıq imkanları məhdud, eləcə də daun və autizm sindromlu, hemofiliyalı, danışma və eşitmə əngəlli uşaqlardan ibarət rəqs qruplarının çıxışları olub.

İdman guşəsi ilə tanış olan Leyla Əliyeva burada Boccia İdman Federasiyasının idmançıları ilə görüşüb. Azərbaycanda boccia idmanı Leyla Əliyevanın təşəbbüsü ilə yaradılaraq ildən-ilə inkişaf edib. Bu idman növü üzrə milli komandamız beynəlxalq yarışlarda artıq ilk qələbələrə imza atıb.

Əlilliyi olan şəxslər boccia, qılıncoynatma, parataekvondo, oxatma, güllə atıcılığı növlərində öz məharətlərini göstəriblər.

Leyla Əliyeva idmançılara yeni-yeni uğurlar arzulayıb.

# Şirvan şəhərində əhalinin tibbi müayinəsi mütəşəkkil keçir

Hər ilin əvvəlində - fevral, mart, aprel aylarında respublikamızda əhalinin tibbi müayinədən keçməsi, hər kəsin öz sağlamlıq durumunun vəziyyətini bilməsi və onun qayğısına qalması, həkimlərin bu sahədə onlara kömək göstərməsi artıq ənənə halını almışdır. Bu tədbir Prezident İlham Əliyevin göstərişinə əsasən həyata keçirilir.





Bunun üçün isə tibb müəssisələrinin lazımi səviyyədə olması mühüm şərtdir. Digər sahələr kimi, ölkəmizdə səhiyyə sahəsində görülən işlər, həyata keçirilən tədbirlər də göz qabağındadır. 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində şəhərlərdə, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə yeni müalicə ocaqları, diaqnostika mərkəzləri, klinikalar, uşaq tibb mərkəzləri, tibb məntəqələri tikilib istifadəyə verilir. Köhnə səhiyyə ocaqları isə təmir edilib yenidən qurulur. Bu müəssisələr inkişaf etmiş Avropa ölkələrində istehsal olunmuş dünya standartlarına cavab verən ən müasir tibbi avadanlıqlarla təchiz edilir. İxtisaslı, peşəkar həkim kadrlarının hazırlanması diqqət mərkəzində saxlanılır. Məhz bunun nəticəsidir ki, respublika əhalisi müalicə üçün xarici ölkələrə daha az üz tutur.

Bu gün Şirvan şəhərinin tibb müəssisələrinin kollektivləri də əhalinin sağlamlığı keşiyində ayıq-sayıq dayanmışlar. Respublikamızın digər şəhər və rayonlarından olan xəstələr də çox vaxt ümidlə, inamla buradakı həkimlərin qəbuluna gəlirlər. Şəhər əhalisinin müayinə prosesi də mütəşəkkil şəkildə davam edir. Bununla əlaqədar Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalovun 6 fevral 2019-cu il tarixli sərəncamı ilə xüsusi komissiya yaradılmışdır. Əhalinin tibbi müayinəsinin mütəşəkkilliklə keçməsini təmin etmək məqsədilə lazımi təşviqat-izahat işləri aparılır. Qeyd edək ki, Şirvan şəhərində 86 min 519 nəfər əhali yaşayır ki, bunun da 63 min 850 nəfərini 18 və yuxarı yaş həddində olanlar təşkil edir.

Səhər poliklinikasının baş həkim əvəzi Sədaqət Quliyeva və böyük tibb bacısı Pərinisə Əliyeva ilə müayinənin gedişatı barədə söhbət etdik. Məlum oldu ki, 11 aprel tarixinə kimi 46 min 342 nəfər tibbi baxışdan keçmiş, onlardan 43 min 556 nəfərin sağlam olduğu müəyyən olunmuşdur. 3 min 320 nəfər ambulator, 405 nəfər stasionar müalicəyə cəlb olunmuşdur. 105 nəfər ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilmiş, 91 nəfər xəstə üzərində cərrahiyyə əməliyyatı aparılmışdır.

Böyük tibb bacısı P.Əliyeva ilə müayinə otaqlarına baş çəkirik. İlk olaraq terapevt-həkim otağına gedirik. Foyedə cərgə ilə düzülmüş əsgərləri görürük. Tibb bacısı onların da müayinəyə gəldiklərini bildirir. Terapevt-həkimin otağına daxil oluruq. Tibb bacısı bizi təqdim edib, gəlişimizin məqsədini bildirir. Biz həkim Hicran Hüseynova ilə görüşüb işlərin gedişi ilə tanış oluruq. Məlum olur ki, müayinə etdiyi Kəmalə Abuşova Şirvan şəhər S.Zeynalov küçəsi, 18/9 ünvanda yaşayır. K.Abuşova hər il keçirilən həkim müayinəsi kampaniyasının insanlar üçün çox mühüm əhəmiyyət kəsb etdiyini, ortaya çıxa biləcək hər hansı xəstəliyin vaxtında qarşısının alınmasında bunun xüsusi rolunu qeyd edir və ona görə də dövlət başçısına, həkimlərə öz təşəkkürünü bildirir.

Oftalmoloji kabinetdə həkim Naminə Heydərova Şirvan şəhər M.Ə.Rəsulzadə küçəsi 29 nömrəli evdə yaşayan Aytac Quliyevanı müayinə edir. Həkim N.Heydərova pasiyentinə hər şeyin normal olduğunu deyir. Bundan sonra müayinə aparatı qarşısında şəhərdəki G.Şıxbaoğlu küçəsinin sakini İlham Məmmədəliyev əyləşir. Həkim onu da diqqətlə müayinə edib öz məsləhətlərini verir.

Poliklinikanın digər şöbələrinin qarşısında xeyli adam dayandığını görürük. Onlar növbə ilə içəri keçir, müayinə olunur, öz sağlamlıqları, səhhətləri haqqında ətraflı məlumat alırlar. Müalicəyə və ya əməliyyata ehtiyacı olanlar isə yuxarıda dediyimiz kimi, lazımi müalicə ocaqlarına göndərilirlər. Onu da vurğulayaq ki, biz orada olanda şəhərdəki idarə, müəssisə və təşkilatların əksəriyyətinin kollektivi həkim baxışından keçmişdi. Müayinənin gedişi vəziyyəti isə hər gün iş vaxtının sonunda müzakirə olunur və bu barədə şəhər icra hakimiyyətinə məlumat verilir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Abşeron rayonunda törədilmiş qətlin üstü açılıb

Abşeron rayonunda törədilmiş qətlin üstü polis və prokurorluq orqanları əməkdaşlarının həyata keçirdikləri zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində açılıb.

Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Tamara Rəsulovanın oğlu Əli Rəsulovun itkin düşməsini bildirərək tapılmasında kömək göstərilməsi ilə bağlı müraciəti əsasında aparılan araşdırma zamanı Ə.Rəsulovun qəsdən öldürülməsinə, eləcə də ona məxsus əmlakın dələduzluq yolu ilə ələ keçirilməsinə ehtimal etməyə kifayət qədər əsaslı şübhələr olduğundan Abşeron Rayon Prokurorluğu tərəfindən cinayət işi başlanılıb və istintaq aparılıb.

Aparılmış istintaqla Fuad Mustafayevin 2016-cı ilin sentyabrında Pirşağı qəsəbəsində icarəyə götürdüyü bağ evində Əli Rəsulovu ona məxsus əmlakı satıb pulunu ələ keçirmək üçün tamah niyyəti ilə bıçaqla xəsarətlər yetirib qəsdən öldürdüyünə, cinayəti gizlətmək məqsədilə meyiti hissələrə bölərək sellofan torbaya büküb basdırmasına, daha sonra Ə.Rəsulovun tək yaşadığı evində olan məişət əşyalarını satmasına, eləcə də evi hüquq verən rəsmi sənədləri saxtalaşdırmaqla dələduzluq yolu ilə ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilib.

Aprelin 17-də Fuad Mustafayev Cinayət Məcəlləsinin 120.2.5-ci (tamah məqsədi ilə qəsdən adam öldürmə), 178.2.4-cü (dələduzluq, xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 320.1-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama və ya satma) və 320.2-ci (bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib. Ona həmin maddələrlə ittiham elan olunub.

Cinayət işi üzrə istintaq davam etdirilir.

# Ermənistan ordusu atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Acarlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)” münasibətilə “Azərbaycan Sərhəd Mühafizəsi - 100 il” mövzusunda keçiriləcək yaradıcılıq müsabiqəsinin şərtləri

Müsabiqənin keçirilməsində əsas məqsəd gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, cəmiyyətimiz üçün sağlam düşüncəli gənclərin yetişdirilməsi, onların vətənimizin müqəddəs sərhədlərinə hörmət ruhunda tərbiyə olunması, sərhədçi peşəsinə marağın artırılması, sərhəd xidmətinin xüsusiyyətlərinin və əhəmiyyətinin ictimaiyyətə çatdırılması, sərhədlərimizin mühafizəsi sahəsində əcdadlarımızdan miras qalmış milli-mənəvi dəyərlərin, ənənələrin yaşadılmasıdır.

Müsabiqə “Azərbaycan Sərhəd Mühafizəsi - 100 il” mövzusunu özündə əks etdirən mahnı, dekorativ-tətbiqi sənət (bədii tikmə, toxuma, əlvan metal üzərində döymələr, taxta üzərində oyma və yandırma işləmələri), təsviri sənət (rəngkarlıq), bədii ədəbiyyat (şeir, hekayə), qəzet məqaləsi və inşa yazısı nominasiyaları üzrə keçirilir.

**Müsabiqənin şərtləri:**

1. Müsabiqədə mahnı, dekorativ-tətbiqi sənət (bədii tikmə, toxuma, əlvan metal üzərində döymələr, taxta üzərində oyma və yandırma üsulu ilə işləmələr), təsviri sənət (rəngkarlıq), bədii ədəbiyyat (şeir, hekayə), qəzet məqaləsi nominasiyaları üzrə yaşından asılı olmayaraq bütün yaradıcı şəxslər, inşa yazısı nominasiyasında isə sərhədyanı rayonların orta məktəblərinin 10-cu sinif şagirdləri iştirak edə bilərlər.
2. Mahnı, dekorativ-tətbiqi sənət, təsviri sənət, bədii ədəbiyyat və qəzet məqaləsi üzrə təqdim olunan işlər üzərində müəllif barədə məlumatlar göstərilmir. Həmin məlumatlar anketdə əks etdirilir (anketin forması qaydaya əlavə olunur) və zərfə qoyulur. Əl işlərinin arxasında və zərfin üzərində şərti ad qeyd olunur və aşağıdakı qaydada təqdim olunur:
   - *şeir, hekayə və qəzet məqaləsi nominasiyalarında iştirak edənlər yazılarını çap və elektron formada (CD diskdə, Arial 12 şriftlə);*
   - *mahnı müsabiqəsi nominasiyasında iştirak edənlər musiqi əsərlərinin sözlər və notlarını yazılı formada, tam mətnli musiqisini isə DVD diskdə;*
   - *dekorativ-tətbiqi sənət üzrə təqdim edilən əl işlərinin ölçüləri 90 x 70 santimetr ölçüdən az olmamalıdır;*
   - *rəngkarlıq üzrə əsərlər kətan parça üzərində çəkilməli və çərçivəyə salınmalı, 90 x 70 santimetr ölçüdən az olmamalıdır;*
   - *inşa yazısı 12 vərəqli dəftərdə, göy rəngli qələmlə yazılmalı, dəftərin üz hissəsində şagird haqqında məlumat (şagirdin soyadı, adı və atasının adı, rayon və məktəb haqqında məlumat və əlaqə telefonu) qeyd olunmalıdır. Müsabiqənin keçirilməsi və qiymətləndirilməsi üçün hərbi hissələrdə rayon təhsil şöbələri ilə birgə xüsusi komissiyalar yaradılır. Komissiyalar 3 (üç) ən yaxşı inşa yazısını qiymətləndirir.*
3. Müsabiqəyə təqdim edilən bütün əsərlər və əl işləri müvafiq qaydada doldurulmuş anketlə birlikdə 2019-cu il may ayının 30-dək Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə təqdim edilməlidir (Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 30).
4. Təqdim olunan bütün əsərlərdə (əl işlərində) Azərbaycan Sərhəd Mühafizəsi tərənnüm edilməli, əsərlər (əl işləri) müsabiqəyədək heç bir yerdə çap, nəşr və yaxud nümayiş etdirilməməlidir.
5. Dövlət Sərhəd Xidmətinin, Təhsil Nazirliyinin, Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Bəstəkarlar İttifaqının və Mətbuat Şurasının nümayəndələrindən ibarət komissiya yaradılır, komissiya hər nominasiya üzrə 3 (üç) ən yaxşı əsəri seçir, qalibləri müəyyən edir.
6. Müsabiqənin nəticələri Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyi ərəfəsində elan ediləcəkdir.
7. Müsabiqə ilə bağlı yaranmış suallarla iştirakçılar hərbi hissələrin şəxsi heyət üzrə şöbələrinə və Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə müraciət edə bilərlər.

**Müsabiqə qalibləri üçün aşağıdakı mükafatlar təsis olunur:**

**Mahnı müsabiqəsi üzrə:**

I yer - 1-ci dərəcəli diplom və 800 (səkkiz yüz) AZN məbləğində pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 700 (yeddi yüz) AZN məbləğində pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 600 (altı yüz) AZN məbləğində pul mükafatı.

**Dekorativ-tətbiqi sənət üzrə:**

Bədii tikmə və toxuma

I yer - 1-ci dərəcəli diplom və 1000 (bir min) AZN məbləğində pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 900 (doqquz yüz) AZN məbləğində pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 800 (səkkiz yüz) AZN məbləğində pul mükafatı.

Dəmir (əlvan metal) üzərində döymələr

I yer - 1-ci dərəcəli diplom və 600 (altı yüz) AZN məbləğində pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 500 (beş yüz) AZN məbləğində pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 400 (dörd yüz) AZN məbləğində pul mükafatı.

Taxta üzərində oyma və yandırma

I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) AZN məbləğində pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) AZN məbləğində pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) AZN məbləğində pul mükafatı.

**Təsviri sənət üzrə:**

Rəngkarlıq

I yer - 1-ci dərəcəli diplom və 800 (səkkiz yüz) AZN məbləğində pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 700 (yeddi yüz) AZN məbləğində pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 600 (altı yüz) AZN məbləğində pul mükafatı.

**Bədii ədəbiyyat üzrə:**

Şeir

I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) AZN məbləğində pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) AZN məbləğində pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) AZN məbləğində pul mükafatı.

Hekayə

I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) AZN məbləğində pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) AZN məbləğində pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) AZN məbləğində pul mükafatı.

**Qəzet məqaləsi üzrə:**

I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) AZN məbləğində pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 350 (üç yüz əlli) AZN məbləğində pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) AZN məbləğində pul mükafatı.

**İnşa yazısı üzrə:**

I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) AZN məbləğində pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 350 (üç yüz əlli) AZN məbləğində pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) AZN məbləğində pul mükafatı.

**Müsabiqə iştirakçısının anketi (nümunə)**

(soyadı, adı, atasının adı)

Doğum tarixi ____________________

Təhsili ____________________

İş yeri, vəzifəsi ____________________

Ünvan, telefon (ev, iş, mobil) ____________________

**Müsabiqəyə təqdim olunan işlər**

1. ____________________
2. ____________________

(əsərin adı)

İşi təhvil verdi: ____________________

İşi təhvil aldı: ____________________

## UNEC alimlərinin dünya elminə töhfəsi




Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) alimlərinin “Neftin dünya bazar qiyməti: təsir edən amillər və proqnozlaşdırma (“World Market Price of Oil: ImpactıngFactors and Forecastıng (SpringerBriefsinEconomics))” kitabı dünyanın tanınmış nəşriyyat evi və Elmi nəşrlərin Sosial-iqtisad və Təbiət Elmləri (SENSE) sahəsində resenziyalı, yüksək kateqoriyalı “Springer” nəşriyyatı tərəfindən çap edilib.

Kitabın müəllifləri UNEC-in rektoru, professor Ədalət Muradov, UNEC nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunun direktoru, professor Yadulla Həsənli və UNEC Biznes Məktəbinin direktoru, dosent Nazim Hacıyevdir. Elmi redaktorları Harvard Biznes Məktəbinin professoru və Davis Rusiya və Avroasiya Araşdırmalar Mərkəzinin (Beyin Mərkəzi) direktoru, professor Ravi Abdelal və Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə, elmi rəyçiləri isə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə və AMEA-nın İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü, İspaniya Kral Akademiyasının akademiki Qorxmaz İmanovdur.

Kitabda qlobal iqtisadiyyatda baş verən yeni tendensiyalar və çağırışlar fonunda mühüm strateji əhəmiyyət daşıyan xam neftin dünya bazarlarında qiymətinə təsir edən amillər, 2020-ilə qədər neftin dünya bazar qiyməti və ilk dəfə olaraq Azərbaycan neftinin (AzərLayt) dünya bazar qiymətinin orta və uzunmüddətli dövr üçün elmi və praktik baxımdan əsaslandırılmış proqnozlaşdırmağa imkan verən ekonometrik (ARIMA, Trend və Hibrit) modelləri qurulub.

***“Azərbaycan”***

## Azərbaycan Respublikası Vergilər Nazirliyi açıq məkanda reklam yerləşdirilməsinin satın alınması üçün

## *açıq tender elan edir*

Müvafiq maliyyə və texniki imkanlara malik olan tender iştirakçıları tender təkliflərini yazılı şəkildə, möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanına təqdim etməlidirlər.

Tender təklifi zərfləri 4 iyun 2019-cu il tarixdə yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Tenderdə iştirak etmək üçün iştirakçı aşağıda göstərilən sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 (doxsan) bank günü qüvvədə olmalıdır);*
- *iştirakçının Azərbaycan Respublikasında vergilərə, digər icbari ödənişlərə dair yerinə yetirilməmiş və vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış (Vergilər Nazirliyinə ünvanlanması göstərilməklə);*
- *iştirakçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iştirakçının son 1 (bir) ildəki bank dövriyyəsi haqqında arayış;*
- *iştirakçının ixtisas göstəricilərinə dair sənədlər;*
- *iştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət reyestrindən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iştirakçının bank rekvizitləri barədə məlumat;*
- *iştirakçının rəhbərinin şəxsiyyətini və vəzifəyə təyin olunmasını təsdiq edən sənədlərin surəti;*
- *satınalma müqaviləsinin yerinə yetirilməsinə əsas rəhbərlik edəcək və texniki işləri yerinə yetirəcək işçilərin ixtisası və təcrübələri barədə məlumat;*
- *Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 26 dekabr tarixli 598 nömrəli Qərarı ilə təsdiq edilmiş icazə müqaviləsi və icazə müqaviləsinə əlavə;*
- *tenderin əsas şərtlər toplusunda iştirakçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

Yuxarıda qeyd olunan sənədlər (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 23 may 2019-cu il saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Sənədlər Azərbaycan dilində, 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə tərtib olunmuş sənədlərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Tenderdə iştirak etmək və əsas şərtlər toplusunu almaq üçün iştirakçı 1 000,00 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidir:

**Azərbaycan Respublikası Vergilər Nazirliyi**

| | |
|---|---|
| **Hesab №:** | **AZ65CTRE00000000000002118401** |
| **VÖEN:** | **1300204521** |
| **Dövlət Xəzinədarlığı Agentliyi** | |
| **Kodu:** | **210005** |
| **VÖEN:** | **1401555071** |
| **M/h:** | **AZ41NABZ01360100000000003944** |
| **S.W.İ.F.T.BİK:** | **CTREAZ22** |
| **Büdcə təsnifatının kodu:** | **142340** |
| **Büdcə səviyyəsinin kodu:** | **7** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tender təklifi və tender təklifinin təminatı 03 iyun 2019-cu il saat 18:00-a qədər AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri Tender komissiyasının iclasında iştirak edə bilərlər.

Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti: satınalma müqaviləsinin imzalandığı tarixdən 31 dekabr 2019-cu il tarixinədək.

**Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:**

AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16, Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Əlaqələndirici şəxs:** Gülbahar Qasımova, e-mail: gulbaxar.qasimova@taxes.gov.az, tel: (+994 12) 403-87-91.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin və odadavamlı məhlulun alınaraq vurulması işlərinin satın alınması (LOT 1), Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin və müvafiq sahəyə uyğun zəruri avadanlıq, iş və mal-materialların satın alınması (LOT 2), Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında quraşdırılmış elektrik avadanlıqlarına texniki, habelə kabellərin izolyasiya müqavimətinin ölçülməsi və ildırım ötürücülərin yoxlanılması xidmətlərinin və elektrik mallarının və məişət avadanlıqlarının satın alınması (LOT 3), Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən əsas inzibati binasında 550 kVA-lıq generator qurğusunun təchizatı və quraşdırılması işlərinin satın alınması (LOT 4) və Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsus nəqliyyat vasitələrinə texniki xidmətin satın alınması (LOT 5) ilə əlaqədar elan edilmiş açıq tender üzrə Tender komissiyasının 05 aprel 2019-cu il tarixli qərarı ilə LOT 1, LOT 2 və LOT 3-də nəzərdə tutulan xidmətlər üzrə “Yanğından Qorunma Sistemləri” MMC, LOT 3-də nəzərdə tutulan malların üzrə “BLG” MMC, LOT 4 üzrə “ESTET” MMC və LOT 5 üzrə “İnter Kontinental” firması və “Şərq Motors” MMC qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Bakı Metropoliteni” QSC tərəfindən 05.04.2019-cu il tarixdə keçirilmiş kontaktorların “Açıq tender” üsulu ilə satın alınmasına dair müsabiqədə “İ.M.S. Engineering LTD” MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 19.04.2019-cu il tarixdə ƏDV daxil 45052,40 manat (qırx beş min əlli iki manat 40 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin təsərrüfat sahələrində yaşıllaşma işlərinin aparılması və əkilmiş ağac və bitkilərə qulluğun göstərilməsi xidmətinin satın alınması məqsədi ilə keçirdiyi açıq tenderdə Tender komissiyasının 12 aprel 2019-cu il tarixli yekun protokoluna əsasən “SHELTER GROUP” Məhdud Məsuliyyətli Cəmiyyət qalib gəlmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Təmiz Şəhər” ASC tərəfindən tikinti materiallarının satın alınması məqsədi ilə keçirilən açıq tenderdə Tender komissiyasının 11 aprel 2019-cu il tarixli yekun protokoluna əsasən “AMİNA AND S SERVİCES” Məhdud Məsuliyyətli Cəmiyyət qalib gəlmişdir.

***Tender komissiyası***

## Mali hökuməti istefaya çıxdı



Mali Prezidenti İbrahim Bubakar Keyta Baş nazir Sumeylu Bubeyye Maiqanın başçılıq etdiyi hökumətin istefasını qəbul etmişdir. Nazirlər 160 nəfərin ölümü ilə nəticələnmiş qəbilələrarası toqquşmalardan sonra vəzifələrini tərk etmək qərarına gəlmişlər. Bu barədə “Röyter” agentliyi xəbər verir.

Kütləvi qətl ötən ay Oqossaqu kəndində törədilmişdir. Ölənlər arasında uşaqlar, qadınlar və ahıl adamlar da var. Hücumu etnik nifrət zəminində doqon qəbiləsinin üzvləri həyata keçirmişlər. Hücum edənlər ənənəvi ovçu geyimində olmuşlar.

Sumeylu Bubeyye Maiqa 2017-ci ildən bəri Baş nazir idi. Bundan əvvəl o, Xarici İşlər Nazirliyinə (2011-2012-ci illər) və Müdafiə Nazirliyinə (2000-2002-ci və 2013-2014-cü illər) başçılıq etmişdir.

## Avropa Parlamenti Aİ birgə müdafiə fondunun yaradılmasına razılıq verdi

Avropa Parlamenti Avropa İttifaqının (Aİ) birgə müdafiə fondunun yaradılmasına razılıq vermişdir. Müvafiq təşəbbüsü 328 deputat dəstəkləmiş, 231 parlamentar əleyhinə səs vermiş, 19-u bitərəf qalmışdır. Fond müdafiə sənayesinə innovasiyalar cəlb etməli, o cümlədən yeni silah sistemlərinin inkişafına kömək etməlidir.

Deputatlar bu məqsədi reallaşdırmaq üçün 13 milyard avro ayırmağı təklif edirlər. Yekun məbləğ Aİ-nin 2021-2027-ci illər üçün uzunmüddətli büdcəsi haqqında danışıqlar zamanı müzakirə olunacaq.

Təşəbbüsün tənqidçiləri arasında Almaniya Sosial-Demokrat Partiyasının üzvləri Martina Verner və Arne Lits də var. Vernerin fikrincə, milli müdafiə sistemlərinin Aİ səviyyəsində tədricən inteqrasiyası daha ağıllı addım olardı. Avropalı deputat müdafiə sənayesinin subsidiyalaşdırılmasını “səhv yol” hesab etmişdir. Öz növbəsində Lits vurğulamışdır ki, belə bir fondun yaradılması



“müdafiə sənayesinə hədiyyə” deməkdir və eyni zamanda qənaət etməyə imkan verməyəcək.

Ötən ay Xristian-Demokrat İttifaqının (XDİ) sədri Anneqret Kramp-Karrenbauer bildirmişdir ki, Almaniya və Fransa döyüş təyyarəsi layihəsi üzərində birgə iş aparır, digər ölkələr isə layihədə iştiraka dəvət olunur. XDİ sədrinin dediyinə görə, növbəti addım - müştərək təyyarədaşıyan gəminin yaradılması Aİ-nin təhlükəsizlik və sülh məsələlərində mühüm rol oynayacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, Dövlət mükafatı laureatı, tarix üzrə fəlsəfə doktoru

**GÖHƏR NAĞI QIZI MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin İdarə Heyətinin üzvü, sədr müavini Xəyyam Fərzəliyevə əzizi

**XOŞQƏDƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC aparatının kollektivi iş yoldaşları Sevinc Məlikovaya anası

**SARA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9096
Sifariş 1256
Qiyməti 40 qəpik